36_27 IYUl-QARA.qxd 9/25/2025 11:11 PM Page 1

UNİKAL

№36 (2266) 26 sentyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə



Səh.9

## Prezident İlham Əliyev BMT-dən dünyaya səsləndi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.*

*"Unikal" dövlətimizin başçısının çıxışını təqdim edir.*

*Prezident İlham Əliyevin çıxışı*

*-Xanımlar və cənablar.*

*Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam.*

*Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qaldı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salındı. Onların fundamental insan hüquqları kobud şəkildə pozuldu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi.*

Səh.3

## "Vaşinqton razılaşmaları mahiyyət etibarı ilə tarixi əhəmiyyət kəsb edir"



*Milli Məclisin deputatı Elman Nəsirov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etməsindən, rəsmi qəbulda Azərbaycan lideri ilə ABŞ Prezidenti Donald Trampın dialoqundan və dövlət başçısının Nyu-Yorkda bir sıra iri şirkətlərin rəhbərləri...*

Səh.4

## Bakı xəstəxanalarındakı sıxlığın ilginc pərdəarxası



*Son vaxtlar Bakıda yaşayan vətəndaşlar ölkə paytaxtında yerləşən xəstəxanalardakı sıxlıqdan, uzun növbələrdən şikayətlənirlər. Hətta bu səbəbdən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) ünvanına tənqidlər də səsləndirilir. Əslində müşahidələrimiz xəstəxanalardakı sıxlıqla bağlı...*

Səh.8

## Uşaqların fiziki sağlamlığı təhsil mühitində



*Gənc nəslin fiziki və mənəvi sağlamlığı sağlam cəmiyyətin formalaşması baxımından çox əhəmiyyətlidir. Uşaqların təkcə ailədə deyil, təhsil müəssisələrində də sağlamlığının qorunması, onların fiziki baxımdan inkişafı dövlətin diqqət mərkəzindədir. Bu baxımdan ümumtəhsil müəssisələrində...*

Səh.11

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:13 PM Page 2



# "Qaynanam məni oxumağa alıb, yemək bişirməyə yox" - Könül Kərimova



***Əməkdar artist Könül Kərimovanın qonaq olduğu "Rəngarəng" verilişində verdiyi açıqlama maraqla qarşılanıb.***

"Mətbəxi sevən adamam. Bəlkə də səhnədə olmazdım. Doğma xalam qayınanam olub. Onun təkidi ilə səhnəyə qayıtdım. Hətta belə bir xəbər göndərmişdi ki, mən Könülü oxumağına görə almışam. Qazın yanından çəkilsin işi ilə məşğul olsun.Belə qayınanalar var, yoxsa mənim kimi... Deyirəm gəlinim müğənni olmasın".

Sənətçinin etirafları maraqla qarşılanıb.

# "Bir-birimizi qırırıq, kimin nəfsi oldu bu?" - Xatirə İslam



***Müğənni Xatirə İslamın paylaşımı marağa səbəb olub.***

"Unikal" xəbər verir ki, o, dəvət aldığı canlı efirə getmədiyini bildirib. Sənətçi bunun səbəbini isə belə əsaslandırıb: "Nə qədər əsəbiləşdiyimi təsəvvür edə bilməzsiniz. Səhərdən hazırlaşıb, efirə gedirdim. Üç mahnının heç biri yüklənmədi. Kimin nəfsi oldu bu? Yeni mövsümə köhnə mahnılarla çıxa bilmərəm, üzürlü sayın. Çox əsəbiləşmişəm, studiya ilə bir-birimizi qırırıq. Sonu da gəldi belə oldu".

# "Qardaşım məni ələ salırdı" - Sevda Yahyayeva

***Müğənni Sevda Yahyayeva maraqlı açıqlama verib.***

"Unikal" xəbər verir ki, keçmişini yada salan ifaçı uşaqlıq illərindən danışıb.

Sevda həmin illəri bu sözlərlə göz önünə sərib: "Qardaşım evdə məni ələ salırdı. Məktəbli yaşlarımda olarkən Röya, Aygün Kazımova, İradə İbrahimova, Zülfiyyə Xanbabayevanın kliplərinə baxıb, vaxt gələcək, bu kliplərdən mənim də olacaq deyirdim. Biz kasıb olduğumuz üçün o, buna inanmırdı. Mən isə həmişə özümə inanırdım. Bilirdim ki, bu çətin olacaq, uğura gedən yol asan olmur. Mən bütün maneləri aşdım və şükür ki, bu gün səhnədəyəm və ən əsası da çox sevilirəm.



Sevilmək bir başqa hissdir, mən buna görə çox xoşbəxtəm. Bunu tərif kimi qəbul etməyin, bu mənim içimdən gəlir. Hamıya uğurlar arzu edirəm".

# Xatun müğənni ilə eşq yaşayır? - Özü açıqladı



***Müğənni Xatun Əliyeva barəsində yayılan eşq iddialarına ilk dəfə cavab verib.***

Sənətçinin duet ortağı Cəzahirlə sevgi münasibətində olduğu iddia olunub.

Xatun yayılan söz-söhbətə aydınlıq gətirib: "Həmişədən duet ortaqları ilə bağlı belə sözlər deyilir. Fikirlərinə hörmətlə yanaşıram. Biz biznes partnyoruyuq. Bunu nə təkzib edirik, nə də təsdiq. Kimə necə xoşdu elə də qəbul etsin".

Cəzahir isə dostluqlarının olduqlarını bildirərək, mövzu barədə açıqlama verməyib.

# Aygün Kazımovanın yaşlı kişi ilə videosu gündəm oldu



***Məşhur estrada ulduzu Aygün Kazımova sosial mediada maraqlı görüntülərlə yenidən gündəmə gəlib.***

"Unikal" xəbər verir ki, məclislərdən birində çəkilən video yayılanda diqqətlər onun yaşlı bir kişi ilə birlikdə səhnədə rəqs performansı olub.

Sözügedən anlar bir çox izləyici tərəfindən müsbət qarşılanıb. Lakin tənqidi şərhlər yazanlar da olub.

# "Ürəyimdə yeni bir səhifə açdım" - Günel Zeynalova



***Müğənni Günel Zeynalova Türkiyədə alış-veriş məkanlarından birində kameralara tuş gəlib.***

İfaçı bir müddət əvvəl keçmiş nişanlısı, iş adamı Reza Zərrab və türkiyəli müğənni Ebru Gündeşi bağışlaması ilə bağlı səsləndirdiyi fikirlərindən söz açıb: "Hər kəsi bağışlayaraq ürəyimdə tamamilə yeni bir səhifə açdım. Üzərinə götürdüyüm yüklərdən qurtulmaqla ruhum yüngülləşdi və özümü daha rahat hiss edirəm. Artıq həyat döyüşlər və inciklərlə deyil, sülh və sevgi ilə doludur".

Qeyd edək ki, Ebru Günel iş adamı Reza Zərrabla nişanlı olan ərəfədə onunla eşq yaşayıb. Daha sonra Ebru və Reza ailə qurub, bir neçə il əvvəl isə ayrılıblar. Onların bu nikahdan bir qız övladı var.

# "İndiki zamanda göydə Allah, yerdə puldur" - Gövhər Rzayeva



***"Pul əl çirki deyil. Versinlər, mənim əllərim çirklənsin. Pul adamın ad-sanı, şan-şöhrətidir. Deyir, pulun olmasa, uşaq getməz məktəbə, pulun olsa, tikərsən bəsmərtəbə. İndiki zamanda göydə Allah, yerdə puldur".***

Bu sözləri Əməkdar artist Gövhər Rzayeva "Günə bax" verilişində deyib. O, həyatda pulun önəmindən söz açıb: "Bir də insanlıq. İnsanlığı da Allah hər adama vermir. İstəyirəm ki, insanın həm pulu olsun, həm insanlığı, başını itirməsin, yolunu azmasın. Allah çox verib azdırmasın, az da verib möhtac etməsin. Adam var ki, pulu olan kimi gözü ayağının altını görmür. Amma fikirləşmir ki, fani həyatdır. Heç kim bu dünyada qalmayıb. Heç nə aparmırsan. Gərək insan kimi yaşayasan, qudurmayasan".

36_27 IYUI-QARA.qxd 9/25/2025 11:14 PM Page 3





## "E-qanun.ai" platformasının təqdimat mərasimi keçirilib

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Ədliyyə Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gəlmiş, Azərbaycanın hüquqi sənəd və qanunvericilik bazasında effektiv axtarış etməyə imkan verən "E-qanun.ai" platforması istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, "Azərbaycan Respublikasının 2025 - 2028-ci illər üçün süni intellekt Strategiyası"nın icrası məqsədilə hazırlanmış bu süni intellekt məhsulu Strategiyanın 8.2.2-ci yarımbəndində qeyd olunan təbii dil emalı istiqamətlərinin gücləndirilməsi tədbirlərindən biridir.

Təqdimat mərasimində ədliyyə nazirinin müavini Toğrul Hüseynov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov, aidiyyəti qurumların nümayəndələri, hüquqşünaslar və media nümayəndələri iştirak edibələr.

"E-qanun.ai" Ədliyyə Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə müəyyənləşdirdiyi texniki şərtlər əsasında AZCON Holding şirkətlərindən olan Milli Süni İntellekt Mərkəzi tərəfindən hazırlanıb. Sistem hüquqi aktların vahid elektron bazasına əsaslanan, süni intellekt dəstəkli, innovativ hüquqi axtarış platformasıdır.

İstifadəçilər üçün sürətli təhlil və dəqiq nəticə təqdim edən platforma hüquqi sahədə yaranan suallara operativ və etibarlı şəkildə cavab əldə edilməsini hədəfləyir.

Platformanın əsas məqsədi qanunların hər kəs üçün daha əlçatan və anlaşılan olmasını təmin etməkdir.

Burada istifadəçilər hüquqi məlumatı mətnə, mənaya görə və ya hibrid formada axtara, onun süni intellekt əsaslı təhlilini görüntüləyə və əvvəlki axtarışlarının tarixçəsinə öz şəxsi hesablarında baxa bilərlər.

Platformanın bazasında normativ hüquqi aktlar, normativ xarakterli aktlar, qeyri-normativ hüquqi aktlar və rəsmi mətnlər mövcuddur.

Platformanın əsas üstünlüyü süni intellekt texnologiyası ilə axtarış nəticəsinin təhlili, anlaşılan, qısa xülasənin istifadəçiyə təqdim olunması, nəticələrin filtrlənməsi, qovluqlarda saxlanılmasıdır.

Platforma həm də hüquqşünaslar və əlaqəli sahədə çalışan hər kəs üçün iş prosesini sadələşdirməyi hədəfləyir.

Növbəti mərhələdə platforma istifadəçilərinin, eləcə də hüquqşünasların ehtiyaclarına uyğun və onların işini daha da asanlaşdıracaq təkmil funksiyaların təqdim olunması nəzərdə tutulub.

# Bakı xəstəxanalarındakı sıxlığın ilginc pərdəarxası

## "Ölüm kağızı" və tibbi arayışların verilməsində yeniliyə ehtiyac var, əks təqdirdə...

***Son vaxtlar Bakıda yaşayan vətəndaşlar ölkə paytaxtında yerləşən xəstəxanalardakı sıxlıqdan, uzun növbələrdən şikayətlənirlər. Hətta bu səbəbdən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) ünvanına tənqidlər də səsləndirilir.***

Əslində müşahidələrimiz xəstəxanalardakı sıxlıqla bağlı giley-güzarların haqsız olmadığını, lakin bu problemin kökündə tamam fərqli səbəblərin yatdığını söyləməyə əsas verir. Belə ki, TƏBİB onlayn növbə sisteminin tətbiqinə start verib və bu təcrübədən istifadə edən tibb müəssisələrinin siyahısı günbəgün genişlənir. Qurumdan bildirilir ki, sistemin əsas məqsədi pasiyentlərin qəbul prosesini optimallaşdırmaq, canlı növbələri minimuma endirmək və vətəndaş məmnuniyyətini artırmaqdır. Elektron növbə sisteminin tətbiqi nəticəsində pasiyentlər onlayn və ya yerində növbə götürərək rahat şəkildə qəbul üçün qeydiyyatdan keçə bilirlər. Tibb personalı qəbul planlamasını daha düzgün həyata keçirir, zamanın idarəolunması tənzimlənir. Ancaq hətta bu da həm vətəndaşların, həm də tibb işçilərinin dövlət xəstəxanalarındakı sıxlıqdan əziyyət çəkməsini önləməyə kifayət eləmir.

Bəs buna səbəb nədir? "Unikal"ın mövzu ilə bağlı araşdırması ortaya ilginc nüanslar çıxarıb.

### Səbəblərdən biri: "Ölüm kağızı"...

Araşdırmamız nəticəsində aydınlaşıb ki, vaxtilə ölüm haqqında tibbi şəhadətnamə mülkiyyət formasından asılı olmayaraq ambulator-poliklinik (stomatoloji istisna olmaqla), stasionar və sanator-kurort xidməti göstərən bütün tibb müəssisələri, həmçinin patoloji-anatomik müayinə aparan dövlət tibb müəssisələri tərəfindən verilirdi. Lakin Səhiyyə Nazirliyi Kollegiyasının 2022-ci il 19 sentyabr tarixli kollegiya qərarı ilə qaydalara müvafiq dəyişikliklər edildi. Dəyişikliyə əsasən, həkim və ya feldşer tərəfindən "Ölüm haqqında tibbi şəhadətnamə"nin elektron qeydiyyatı aparılır, məlumatı dolduran şəxs və tibb müəssisəsinin rəhbəri tərəfindən elektron imza ilə təsdiqlənir. Şəhadətnamənin verilməsi üçün müraciət edən şəxs vəfat edənin və özünün şəxsiyyətini, eləcə də qohumluq əlaqəsini təsdiqləyən sənədləri tibb müəssisəsinə təqdim etməlidir. Məhz bundan sonra da doğmasını itirən üçün ölüm haqqında tibbi şəhadətnaməni almaq Azərbaycanda müşkülə çevrilib. Bu sənədin tərtibi və təqdim edilməsi proseduru həddindən artıq qəlizləşdirilib.

Xalq arasında "ölüm kağızı" adlanan ölüm haqqında tibbi şəhadətnaməni almaq üçün ən azı 5 tibbi instansiyadan keçmək lazım gəlir. Bu, bir tərəfdən vətəndaşlar üçün kifayət qədər vaxt itkisi, əsəb, stress deməkdir. Şəhadətnamənin tərtibi üçün vətəndaş saatlarla növbələrdə gözləməli olur, hansısa xırda sənədin gətirilməsi üçün bir neçə tibb müəssisəsinə yönəldilir, hətta müəyyən meyarlar uyğun gəlmədikdə təkrar sənəd tələbi ilə üz-üzə qalır. Digər tərəfdən, onsuz da ağır rejimdə işləyən dövlət xəstəxanaları əlavə "yüklənir". Xülasə, bir yandan ölüsünün hüznünü yaşayan vətəndaş bir tərəfdən də itirdiyi yaxınının həqiqətən öldüyünü təsdiqləmək üçün minbir əziyyətə qatlaşmalı olur. Və nəhayət, bütün bu proses xüsusən milyonlarla insanın məskunlaşdığı paytaxtdakı xəstəxanalarda sıxlığın artmasına gətirib çıxarır.

Qeyd edək ki, "ölüm kağızı"nın verilməsinin sadələşdirilməsi məsələsi bu ilin iyulunda Milli Məclisin plenar iclasında da gündəmə gəlmişdi. Deputat Razi Nurullayev demişdi ki, həmin sənədin verilməsi ilə bağlı prosedurlar qanun çərçivəsində mürəkkəbləşdirilib və tələblər yüksəlib. Sitat: "Amma qəbul etməliyik ki, bizim yas mərasimlərimiz daha çox adət-ənənəyə və mental dəyərlərə söykənir. Xəstəxanada xəstə kimi qeydiyyatda olmayana, təcili yardım çağırmayana da ölüm kağızı verilmir, təyin olunmuş qısa müddət ərzində dəfn pulu üçün müraciət etməyənə də verilmir və hamısı məhkəməyə yönləndirilir. Yaxınını itirmiş ailənin başı minimum 7-10 gün qarışır. Hüquqi prosedurlar yadına düşmür belə... Əvvəl icra nümayəndələrinin verdiyi arayışla məsələ asanlıqla həllini tapırdı... Təklif edirəm ki, ölüm kağızının və dəfn pulunun ödənilməsi ilə bağlı qanun və qaydalarda sadələşdirilmə aparılsın".

### Başqa bir səbəb: sağlamlıq arayışları...

Araşdırmamız zamanı o da aydınlaşıb ki, tibbi arayışların verilməsi də TƏBİB-in tabeliyindəki sağlamlıq ocaqlarında "basabas" yaradan nüanslardan biridir. Söhbət yalnız iş yerləri və ya sürücülük vəsiqələri üçün sağlamlıq arayışlarının tələb olunmasından getmir. Hətta orta və ali məktəbə qədəm qoyanlardan da qeydiyyatdan keçmələri üçün bu sənəd tələb edilir. Sağlamlıq arayışını əldə etmək üçün isə bir neçə müayinə və analizdən keçmək lazımdır. Həmin proses vətəndaşların ən azı 2 gün vaxtını alır. Üstəlik, xəstəxanalarda növbələrin daha da uzanması ilə nəticələnir. Bu sadaladıqlarımızın sırasına nikahdan öncə tibbi müayinəni də əlavə edə bilərik.

Mövzu ilə bağlı söhbətləşdiyimiz bir ekspertin fikrincə, tibbi arayışların yalnız dövlət xəstəxanaları tərəfindən verilməsi ənənəsinə son qoyulmalıdır: "Sağlamlıq arayışlarını özəl klinikalar da verə bilər. Lakin bizdə yazılmamış bir qanun var: gərək həmin arayışlar yalnız dövlət xəstəxanalarından alınsın. Bu isə onsuz da yükü ağır olan həmin xəstəxanaların işini bir az da artırır. Nəticədə ortaya uzun növbələr, bəzi hallarda süründürməçilik çıxır, bu da vətəndaşları başqa çıxış yolları axtarmağa vadar edir. Söhbət ilk növbədə rüşvət verib tibbi arayış almaqdan gedir. Getgəldən, xəstəxanalardakı sıxlıqdan, növbələrdən bezən insanlar pul verib formal şəkildə sağlamlıq arayışları alırlar. Digər tərəfdən, vətəndaşlarla həkimlər arasında müəyyən ixtilaflar ortaya çıxır, narazılıqlar yaranır. Halbuki özəl klinikalara da sağlamlıq arayışlarının verilməsinə şərait yaradılsa, həm dövlət xəstəxanalarının yükü azalar, həm rüşvət kimi neqativ hallar aradan qalxar, bəzi müayinələrin, məsələn, psixoloji, narkoloji testlərin səthi aparılması aradan qalxar, tibb işçiləri ilə vətəndaşlar arasında gərəksiz qarşıdurmaya son qoyular, həm də bu proses özəl klinikalar üçün müəyyən dəstək olar".



### Bəs nə etməli?

1997-ci ilin iyulunda "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərman imzalanıb. Həmin Qanuna aradan keçən müddətdə bir çox əlavələr, dəyişikliklər edilib. Lakin mövcud vəziyyətdə sözügedən Qanuna yenidən baxılması, onu dövrün tələblərinə tam uyğunlaşdırmağa ehtiyac var. Ölkədə səhiyyə siyasətini həyata keçirən qurum - Səhiyyə Nazirliyi və Milli Məclisin Səhiyyə komitəsi bu istiqamətdə çalışmalara başlamalı, dövlət xəstəxanalarının bir çox hallarda gərəksiz yüklənməsinin qarşısını almaq üçün təkliflər hazırlamalıdır. Əks təqdirdə, nəinki həmin xəstəxanalardakı sıxlığın aradan qalxacağına ümid etməyə dəyər, əksinə, zaman keçdikcə bu səhiyyə ocaqlarında "basabas"ın daha da artması qaçılmazdır.

***Toğrul Əliyev***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:14 PM Page 4



# ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə

***Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər.***

Qeyd edək ki, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sessiya sentyabrın 30-dək davam edəcək.



Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Rəsmi qəbulda çıxış edən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın çıxışındakı bir çox məqamlar gözardı ediləcək məsələlər deyil. Trampla Əliyev arasındakı dialoq da buna əyani sübutdur.

Tramp dedi: Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

Prezident İlham Əliyev: Daha da çox.

Prezident Donald Tramp: Bundan da çox?

Prezident İlham Əliyev: 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

Prezident Donald Tramp: Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

Prezident İlham Əliyev: Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

Prezident Donald Tramp: Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəziləriniz ilə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq".

BMT Baş Assambleyasının 80-ci sessiyasındakı müzakirələr və görüşlər barədə fikirlərini bizimlə bölüşən Milli Məclisin deputatı Vüqar Bayramov bir sıra mühüm məqamlara toxunub. O bildirib ki, BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfərə gələn Prezident İlham Əliyev bir sıra aparıcı şirkətlərin rəhbərləri ilə görüşlər keçirib. "Brookfield Asset Management", "Neuberger Berman" və "Blackstone" kimi aparıcı şirkətlər Azərbaycanla əməkdaşlıqdan məmnunluqlarını dilə gətirib, bu əməkdaşlığı daha da genişləndirmək istədiklərini vurğulayıblar: "Nəzərə almaq lazımdır ki, bu şirkətlər dünyanın aparıcı qurumlarından hesab olunurlar. Məsələn, "Brookfield Asset Management" şirkətinin idarə etdiyi aktivlərin dəyəri 1.0 trilyon dollardan çoxdur. 250 mindən artıq işçisi olan bu şirkət dünyanın 50-dən çox dövlətində çalışır. Göründüyü kimi, söhbət kifayət qədər iri şirkətlərin sahibləri ilə keçirilən görüşlərdən gedir. Aparıcı şirkətlərin Azərbaycana sərmayə qoyuluşuna marağının artması təqdirəlayiq olmaqla yanaşı, beynəlxalq tədbirlərdə diqqəti çəkən əsas məqamlardan biri də tanınmış iş adamlarının dövlət başçımız ilə görüş üçün müraciətləridir. Ölkəmizdə, həm də onun hüdudlarından kənarda keçirilən beynəlxalq toplantılarda aparıcı şirkətlərlə Azərbaycan Respublikasının Prezidenti arasındakı görüşün məhz həmin şirkətlərin rəhbərlərinin müraciəti əsasında baş tutduğuna şahid oluruq. Bu, birmənalı şəkildə Azərbaycan Respublikası Prezidentinin şəxsi nüfuzunu göstərir. Digər tərəfdən isə dövlətimizin gücünə dəlalət edir".

Deputat qeyd edib ki, iqtisadi inkişaf baxımından bu cür əməkdaşlıqlar ölkəmiz üçün olduqca vacibdir: "Onu da nəzərə çatdırım ki, "Brookfield Asset Management", "Neuberger Berman" və "Blackstone" şirkətləri qlobal miqyasda böyük iqtisadi-maliyyə gücünə malik şirkətlərdir. Onlar qeyri-neft sektorunda da mühüm pay sahibidirlər. Bu şirkətlərlə əməkdaşlığın genişlənməsi ölkəmizə yeni investisiyaların cəlb edilməsi baxımından da olduqca önəmlidir".

Siyasi şərhçi Züriyə Qarayeva isə hesab edir ki, Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində Nyu-Yorkda Donald Trampın təşkil etdiyi rəsmi qəbulda baş verən dialoq, əslində, ikitərəfli münasibətlərdə yeni mərhələnin konturlarını göstərdi. Onun fikrincə, Trampın qeyri-ənənəvi üslubu, liderlərlə daha açıq və fərdi yanaşma sərgiləməsi bu görüşdə də özünü büruzə verdi: "Onun Azərbaycanın uzun illər davam etmiş münaqişəni qətiyyətlə sonlandırmasını xüsusi vurğulaması, Bakının regional liderlik mövqeyinin beynəlxalq səviyyədə tanındığının bariz nümunəsi oldu. Daha öncə ABŞ rəsmilərinin neytral mövqeyi fonunda bu çıxış fərqli məna daşıyır və Vaşinqtonun region siyasətində yeni prioritetlərin formalaşdığına işarə edir. Trampın Qarabağ məsələsini digər beynəlxalq münaqişələrlə müqayisə edərək Azərbaycanın təcrübəsini "effektiv model" kimi təqdim etməsi, əslində, ABŞ diplomatiyasının mesaj xarakterli yanaşmasıdır. Bu, yalnız Azərbaycanla bağlı deyil, həm də digər münaqişə zonalarına siqnal idi: münaqişələrin həlli mümkündür, amma bunun üçün siyasi iradə və liderlik lazımdır. Burada ABŞ-nin Bakı ilə daha sıx əməkdaşlığa meylli olduğu və Azərbaycanın regionda oynadığı rolu yüksək qiymətləndirdiyi açıq şəkildə görünür".

Z.Qarayeva onu da qeyd edib ki, dialoqun ən diqqətçəkən məqamlarından biri isə Trampın "Atışma yoxdur" sualı və İlham Əliyevin "Hər şey tamamilə bitib" cavabı idi. "Bu cür ifadələr protokol çərçivəsini aşaraq, beynəlxalq aləmdə münaqişənin yekunlaşdığına dair rəsmi təsdiq kimi qəbul oluna bilər. Azərbaycanın qalib dövlət mövqeyinin artıq qlobal narrativdə də tanınması həm diplomatik, həm də siyasi baxımdan mühüm nəticədir. Ümumilikdə, bu görüş sadəcə rəsmi qəbul deyil, ABŞ-Azərbaycan münasibətlərinin strateji yaxınlaşmasına dair simvolik mesaj idi. Trampın açıq dəstəyi və komplimentləri, Əliyevin səmimi cavabları qarşılıqlı etimadın artdığını göstərir. Daha da önəmlisi, bu dialoq dünya liderlərinə ünvanlanan bir mesaj kimi oxunur: Azərbaycanın təcrübəsi göstərir ki, siyasi qətiyyətlə uzunmüddətli münaqişələrə son qoymaq mümkündür. Bu isə Bakının beynəlxalq nüfuzunu artırmaqla yanaşı, Vaşinqtonun regiondakı yeni geosiyasi yanaşmasının ipuclarını da ortaya qoyur", - şərhçi fikrini tamamlayıb.

***Seymur Əli***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:14 PM Page 5



# İlham Əliyev onları təltif etdi - Sərəncam



***Prezident İlham Əliyev Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif ediliblər:

Məmmədzadə Kənan Kamil oğlu - polkovnik-leytenant
Sanıyev Xalid Bəhmən oğlu - polkovnik-leytenant
Şahmaliyev Vaqif Şaiq oğlu - polkovnik-leytenant
Ağayev Vüsal Mirzağa oğlu - kapitan
Mövlamov Füzuli Saleh oğlu - kapitan
Musayev Mirvahid Mirələm oğlu - kapitan
Şaliyev Şahin Eldar oğlu - kapitan
Əliyeva Məsumə Teymur qızı - baş leytenant.

# "Milli Mətbuat 150 - Rəqəmsal erada gənclər və media savadlılığı" layihəsinə start verilib




***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikasının Gənclər Fondu və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə könüllülük proqramı çərçivəsində "Milli Mətbuat 150 - Rəqəmsal erada gənclər və media savadlılığı" layihəsinə start verilir.***

Sentyabr-dekabr aylarını əhatə edəcək layihə çərçivəsində 10-dan artıq regiondan 500-dən çox gəncin iştirakı ilə mətbuat tarixi və yeni media istiqamətində, eyni zamanda media savadlılığı mövzusunda təlim, praktik və interaktiv sessiyaların təşkil edilməsi nəzərdə tutulur.

Layihənin məqsədi fəal sosial media istifadəçisi kimi zərərli məlumatların təsirinə daha çox məruz qalma ehtimalı olan gənclərin müasir media və kommunikasiya sahəsində biliklərinin artırılması, media savadlılığı mövzusunda bacarıqlarının təkmilləşdirilməsi, dezinformasiya ilə mübarizədə maarifləndirmənin və həmrəyliyin gücləndirilməsidir.

Layihənin yekunu olaraq, dekabr ayında Bakı və regionlardan ümumilikdə 100-dən çox gəncin iştirakı ilə tədbirin keçirilməsi planlaşdırılır.

# Baş nazirdən kənd təsərrüfatı təyinatlı torpaqlarla bağlı qərar

***Nazirlər Kabineti "Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında qərar qəbul edib.***



"Unikal" xəbər verir ki, qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərara əsasən, Qayda Torpaq Məcəlləsinin 13-1-ci maddəsinin 5-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması ilə bağlı məsələləri tənzimləyir.

Sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin (yay və qış otlaqları, ümumi istifadədə örüş sahələri istisna olmaqla) 1 faizindən artıq olmayan hissəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər inşa edilə və quraşdırıla bilər.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililərin inşa edilməsinə və quraşdırılmasına torpaq sahəsinin mülkiyyətçisinin (onun yazılı razılığı ilə istifadəçisinin və ya icarəçisinin) müraciəti əsasında Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə verilir.

Torpaq sahəsinin əsaslı tikili olmayan bir hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə bölünən torpaq sahələri 5 hektardan az olduğu halda tikililərin inşasına və quraşdırılmasına yol verilmir.

Tikinti əmsalından tam istifadə edildikdə torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, torpaq sahəsinin həmin hissəsi yenidən tikinti əmsalına cəlb edilmir.

Qaydada istifadə olunan anlayışlar normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

# Sahibə Qafarova pakistanlı həmkarı ilə danışıqlar aparıb

***Sentyabrın 25-də Milli Məclisin sədri Sahibə Qafarova ilə Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani arasında telefon danışığı olub.***

"Unikal"a bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Telefon danışığı zamanı Azərbaycan və Pakistan arasında strateji münasibətlərin dostluq və qardaşlıq prinsipləri əsasında uğurla inkişafından razılıq ifadə olunub. İki ölkə arasında əlaqələrin dərinləşməsində Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın Baş nazirlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolu vurğulanıb.

Tərəflər dost və qardaş ölkələrimiz arasında əlaqələrin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da səmərəli münasibətlər qurulduğunu qeyd edərək, qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlıq etdiklərini ifadə ediblər.




Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində növbəti master-klas keçirilib

***"Konstitusiya və Suverenlik İli" çərçivəsində 25 sentyabr 2025-ci il tarixində Medianın İnkişafı Agentliyi, Məhkəmə Hüquq Şurası və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə jurnalistika fakültəsinin tələbələri üçün "Azərbaycan Respublikasının Konstitusiyası insan haqlarının qorunmasının etibarlı təminatçısıdır" mövzusunda master-klas təşkil olunub.***

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin Hüquq şöbəsinin müdiri Adil Tağıyev qeyd edib ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Agentlik tərəfindən gənclər arasında maarifləndirici təşəbbüslərə xüsusi önəm verilir. O bildirib ki, tələbələr üçün keçirilən seminarlar, təlimlər və müxtəlif layihələr Konstitusiyanın mahiyyəti, insan hüquqlarının qorunması prinsipləri və konstitusion dəyərlərin ictimaiyyətə çatdırılması istiqamətində vacib rol oynayır.




Daha sonra Agentliyin Müşahidə Şurasının üzvü, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev çıxış edərək bildirib ki, Konstitusiya yalnız hüquqi sənəd deyil, eyni zamanda dövlətçilik ideologiyasının, milli dəyərlərin və demokratik cəmiyyət quruculuğunun əsasını təşkil edir. O qeyd edib ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində belə master-klasların təşkili gənclərin hüquqi biliklərinin artırılmasına, konstitusion dəyərlərin daha dərindən mənimsənilməsinə və onların vətəndaşlıq məsuliyyətinin gücləndirilməsinə mühüm töhfə verir.

Daha sonra mühazirə ilə çıxış edən Bakı Apellyasiya Məhkəməsinin hakimi Xəyalə Cəmilova isə öz çıxışında Konstitusiyanın qəbul edilməsinin müasir Azərbaycan dövlətçiliyinin hüquqi təməlinin formalaşmasında həlledici rol oynadığını diqqətə çatdırıb. O bildirib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması isə sözügedən dəyərlərin gənc nəsil arasında təbliği və hüquqi maarifləndirmənin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Sonda tələbələrin iştirakı ilə interaktiv müzakirə aparılıb, insan hüquqlarının qorunması və jurnalist fəaliyyətində hüquqi yanaşmalarla bağlı müxtəlif suallara cavab verilib.

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:14 PM Page 6



# Prezident İlham Əliyev BMT-dən dünyaya səsləndi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.***

"Unikal" dövlətimizin başçısının çıxışını təqdim edir.

**Prezident İlham Əliyevin çıxışı**

-Xanımlar və cənablar.

Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam.

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qaldı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salındı. Onların fundamental insan hüquqları kobud şəkildə pozuldu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi. Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən heç bir sanksiyaya məruz qalmadığı üçün qətnamələrə nümayişkaranə şəkildə məhəl qoymadı.

1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar.

Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi.

2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü.

Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi. Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar. Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atdı. Bundan əlavə, Azərbaycan və Ermənistan artıq sülh prosesinə aidiyyəti olmayan köhnəlmiş mexanizm kimi ATƏT-in Minsk qrupunun və əlaqədar strukturlarının bağlanması üçün birgə müraciət ünvanladılar. Beləliklə, sentyabrın 1-də ATƏT bu strukturların birdəfəlik bağlanması barədə qərar qəbul etdi.

Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP).

Vaşinqton Sammiti, həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır.

Eyni zamanda, Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

Ümumilikdə avqust ayında ABŞ-a səfərim zamanı əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət daşıyır.

Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm.

Azərbaycan Qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa proqramına start verdi. Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə-yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi. Biz isə yerlə-yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır.

Postmünaqişə dövründə Azərbaycanın qarşısında duran ən ağır humanitar problemlərdən biri də Ermənistan işğalı dövründə yerləşdirilmiş minaların yaratdığı təhlükədir. 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçi mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb. Bu geniş mina təhdidi köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törədir.

Eynilə, 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyi xüsusi diqqət və tədbir görülməsini tələb edir.

Xanımlar və cənablar, qlobal çağırışlara gəldikdə, biz inanırıq ki, cavab tədbirləri inklüziv, ədalətli və ümumbəşəri olmalıdır.

Azərbaycan bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə aydın sadiqliyini göstərdi.

Ötən il iqlim fəaliyyəti, yaşıl keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyi etməkdən qürur duyduq. COP29-un sədri kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik.

COP29-da qəbul edilmiş, Bakı Maliyyə Hədəfi kimi də tanınan Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qlobal iqlim maliyyəsində tarixi mərhələdir. Bu öhdəlik 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin dövlət mənbələrindən inkişaf etməkdə olan ölkələrə illik 100 milyard ABŞ dolları məbləğində ilkin iqlim maliyyələşdirmə hədəfini hər il ən azı 300 milyard ABŞ dollarına çatdırmağı nəzərdə tutur. Azərbaycan, həmçinin Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, karbon bazarları üçün uzun müddətdir gözlənilən çərçivəni uğurla yekunlaşdıraraq, Paris Sazişinin qəbulundan doqquz il sonra onun tam fəaliyyətə başlamasını təmin etdi. İqlim dəyişikliyindən təsirlənən həssas icmalara vacib dəstək verən İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyət göstərməsi üçün COP29-da bir neçə əsas saziş imzalandı.

Yaşıl keçidə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq. Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz.

Enerji təhlükəsizliyi sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəlidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam edir. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq.

Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri kimi bağlantı layihələri ölkəmizdən keçir. 2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalarda təqribən 90 faiz artımın şahidi olmuşuq. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib.

Rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensial mövcuddur. Azərbaycan "Rəqəmsal İpək Yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünü irəlilədir. Bu layihəyə Azərbaycanın əsas regional rəqəmsal mərkəzə çevrilməsinə şərait yaradacaq Xəzər dənizinin dibi ilə qabaqcıl fiber-optik kabel şəbəkəsinin qurulması planları da daxildir.

Azərbaycan neft və qaz sektorundan əlavə, iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, islahatlar və şəffaflıq vasitəsilə investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə mühüm iqtisadi artıma nail olub. Yoxsulluğun və işsizliyin tarixi minimum həddə - 5 faizə endirilməsi ölkəmizin daha bir nailiyyətidir.

Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı. Çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə, Azərbaycana sərfəli investisiya dərəcəsi verildi. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşündə Xəzər dənizində ətraf mühitin pozulması məsələsini qaldırdım. Bu gün vəziyyət daha acınacaqlıdır. Xəzər dənizi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan, həmçinin həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır.

Xanımlar və cənablar, Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur. Biz təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstəririk. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib.

Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

Təşəkkür edirəm.

## Dövlət Qulluğu Məcəlləsi hazırlanacaq

***Azərbaycan Dövlət Qulluğu Məcəlləsi hazırlanacaq.***

"Unikal" xəbər verir ki, bu, "Milli Məclisin 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı"nda əksini tapıb.

## "Uşaq hüquqları haqqında" qanun layihəsi hazırlanacaq



***Milli Məclisin 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı məlum olub.***

"Unikal" xəbər verir ki, sessiyanın qanunvericilik işləri planına 3 yeni qanun layihəsini hazırlanması daxil edilib.

Bunlar Dövlət Qulluğu Məcəlləsinin, "Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğvi haqqında" və "Uşaq hüquqları haqqında" qanun layihələridir.

## Türkiyə Milli Müdafiə Nazirliyində Vətən müharibəsi şəhidləri anılıb

***Türkiyənin Milli Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə şəhid olmuş Azərbaycan igidlərinin xatirəsini ehtiramla yad edib.***

"Unikal" xəbər verir ki, Türkiyə Milli Müdafiə Nazirliyi sentyabrın 25-də Ankarada mətbuata açıqlamasında 44 günlük Vətən müharibəsinin başlanmasının qarşıdakı ildönümünə diqqət çəkib.

"Qəhrəman Azərbaycan Ordusunun respublikanın işğal altında olan torpaqlarının azad edilməsi uğrunda apardığı 44 günlük Vətən müharibəsinin başlanmasının beşinci ildönümü və 27 Sentyabr - Anım Günü münasibətilə şəhidlərin xatirəsini dərin ehtiramla yad edir, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə töhfə verən qazilərə minnətdarlığımızı bildiririk", -deyə qardaş ölkənin Milli Müdafiə Nazirliyinin açıqlamasında vurğulanır.

## DİN-dən yenilik: "E-Polis" vətəndaşın şəxsi köməkçisinə çevrilir




***Daxili İşlər Nazirliyi tərəfindən vətəndaş məmnunluğunu rəqəmsal həllər və innovativ yeniliklər vasitəsilə daha da artırmaq məqsədilə E-Polis mobil tətbiqi davamlı olaraq təkmilləşdirilir.***

"Unikal" xəbər verir ki, yeni tətbiq edilən "push" bildirişləri sayəsində E-polis istifadəçiləri artıq proqrama daxil olmadıqda belə sənədlərinin etibarlılıq müddəti başa çatmazdan əvvəl vaxtında xəbərdar olunacaqlar. Bu bildirişlər şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, ümumvətəndaş pasportu və nəqliyyat vasitəsinin texniki baxış müddətinin son bitmə tarixi barədə sənədlərə şamil olunur.

Sistem vətəndaşa sənədinin etibarlılıq müddətinin başa çatmasına uyğun olaraq 30, 15 və 3 gün qalmış xəbərdarlıq göndərir. Bu isə hər birimizə sənədlərimizi vaxtında yeniləməyə, əlavə vaxt itkisi ilə üzləşməməyə və inzibati məsuliyyət riskindən yayınmaq imkanı yaradır.

Bir sözlə, əgər vətəndaş əvvəllər sənədinin etibarlılıq müddətini özü izləməli idisə, indi bu işi sistem avtomatik olaraq özü görür və tətbiq istifadəçisini vaxtında xəbərdar edir.

E-polis tətbiqinin daima yenilənən funksiyaları və rəqəmsallaşan üsdünlüklərindən faydalanmağa tələsin.

# "Vaşinqton razılaşmaları mahiyyət etibarı ilə tarixi əhəmiyyət kəsb edir"

## Elman Nəsirov: "Çox yaxın zamanlarda Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq sazişinin imzalanması gözlənilir"

***Milli Məclisin deputatı Elman Nəsirov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etməsindən, rəsmi qəbulda Azərbaycan lideri ilə ABŞ Prezidenti Donald Trampın dialoqundan və dövlət başçısının Nyu-Yorkda bir sıra iri şirkətlərin rəhbərləri ilə keçirdiyi görüşlərin əhəmiyyətindən danışıb.***

***-Elman müəllim, Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfər edib. Dövlət başçısının BMT-nin sessiyasında iştirak etməsini necə qiymətləndirirsiz?***

-BMT Baş Assambleyasının 80-ci sessiyası öz işinə başlayıb. Bu sessiya çərçivəsində yüksək səviyyəli həftə olur. Yüksək səviyyəli ona görə deyilir ki, bütün dövlət, hökumət başçıları və xarici işlər nazirlərinin Nyu-York-a səfəri reallaşır. Bu gün BMT-də 193 dövlət təmsil olunur. İndi tənqidlər olur ki, bu təşkilat dəyişən dünya reallıqlarına lazımi səviyyədə adaptasiya olmayıb, islahatlar getməyib və s. BMT-də islahatlar məsələsini Azərbaycan Prezidenti İlham Əliyev həmişə dilə gətirib və qeyd edib ki, bu təşkilatda islahatlar getməlidir. Xüsusilə BMT Təhlükəsizlik Şurasının üzvlərinin say tərkibində islahatlar olmalıdır. Cənab Prezident Nyu-York şəhərində ABŞ-nin nəhəng maliyyə qurumlarının və alternativ investisiya üzrə şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlər keçirdi. Bu görüşlər Azərbaycanla həmin nəhəng şirkətlər arasındakı iqtisadi əlaqələrin inkişafı baxımından olduqca əhəmiyyətli hadisədir. Eyni zamanda, Prezident İlham Əliyev səfər çərçivəsində bir çox dövlətlərin liderləri ilə görüşlər keçirdi. Azərbaycan Prezidentinin ABŞ-nin lideri Donald Trampla ünsiyyəti xüsusi qeyd edilməlidir. ABŞ Prezidenti Azərbaycan dövlət başçısına çox yüksək qiymət verdiyini bir daha dilə gətirdi. Prezidentlər arasındakı dialoq və onun məzmunu bir daha onu göstərdi ki, ABŞ rəhbərinin Azərbaycan liderinə çox böyük etimadı var, onun haqqında yüksək fikirlər səsləndirdi. Bütün bu məsələlər reallıqları əks etdirir. Cənab Prezidentin düşüncə tərzi qlobaldır və dünyadakı proseslərə təsir etmək potensialı olduqca böyükdür. Azərbaycan lideri dünyada böyük hörmət və etimad qazanıb.

***- Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Rəsmi qəbulda diqqətçəkən məqamlardan biri Donald Trampın Prezident İlham Əliyevlə dialoqu idi. Burada Ermənistan-Azərbaycan münasibətlərindən danışıldı...***

-Bildiyiniz kimi, 8 avqust Vaşinqton razılaşmaları mahiyyət etibarı ilə tarixi əhəmiyyət kəsb edir, strateji razılaşmadır. ABŞ Prezidentinin vasitəçiliyi və iştirakı ilə hər iki dövlətin XİN nazirləri sülh müqaviləsini parafladılar. Çox yaxın zamanlarda Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq sazişinin imzalanması gözlənilir. Bununla bağlı Vaşinqtonda strateji işçi qrupu formalaşdırılıb. ABŞ lideri Azərbaycan Prezidentinə xitabən bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsi 22 il çəkdi? Cənab Prezident söylədi ki, 30 ili ötdü. Çox mürəkkəb və qəliz müharibə idi. Trampa xitabən söylədi ki, sizin sayənizdə möcüzə baş verdi. O da Azərbaycan Prezidenti haqqında çox yüksək fikirlərini səsləndirdi, onun böyük və güclü lider olduğunu vurğuladı. Bu qənaətə gəlmək olar ki, sülh prosesi geridönməz xarakter alıb. Nəzərə alsaq ki, gələn ilin iyul ayında Ermənistanda parlament seçkiləri olacaq. Bundan sonra referendumun keçirilməsi gözlənilir. Bu referendumda Azərbaycana qarşı ərazi iddialarından imtina baş verə bilər ki, bu da sülh müqaviləsinin imzalanması üçün unikal imkanlar pəncərəsi açır. Bütövlükdə, sülh prosesi ilə bağlı Nyu-Yorkda növbəti addım atıldı. Eyni zamanda Azərbaycan-Ermənistan XİN rəhbərlərinin görüşü keçirildi. Bütün bu təmaslar nəticə etibarı ilə sülh prosesi üçün yeni imkanlar açır. ABŞ Prezidentinin böyük dəstəyi, xüsusilə, Zəngəzur dəhlizi, Tramp marşrutu ilə bağlı onun fəal mövqeyi, bu istiqamətdə real addımların atılması belə bir qənaətə gəlməyə şərait yaradır ki, 2026-cı il tarixə sülh ili kimi düşə bilər.

***-Azərbaycan lideri Nyu-Yorkda bir sıra iri şirkətlərin rəhbərləri ilə görüşlər keçirdi. Bu görüşlərin gələcəkdə hansı nəticələrini görmək olar?***

-Cənab Prezidentin bu görüşləri haqqında bəhs edərkən, bir incə məqama toxunmaq lazımdır. BMT çərçivəsində bu görüşlər Azərbaycan Prezidentinin təşəbbüsü ilə olmayıb. Bu təşəbbüs qarşı tərəfdən - nəhəng şirkətlərdən gəlib. Onlar Azərbaycan Prezidenti ilə görüşmək istəyiblər. Qeyd edilən nəhəng şirkətlərin Azərbaycanla münasibətləri, əməkdaşlığı var. Xüsusilə Dövlət Neft Fondu çərçivəsində bu əməkdaşlıq üçün ciddi əsaslar formalaşıb. Məqsəd bu əməkdaşlığı daha da dərinləşdirməkdir və Azərbaycana ABŞ-nin investisiyasının gəlişini daha da intensiv xarakter almasına dəstək verməkdir. Bizim qarşımızda Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması kimi nəhəng məqsəd dayanıb. Bu istiqamətdə ciddi işlər görülür. Hesab edirəm ki, bu prosesə ABŞ-nin qatılması böyük nəticələr verə bilər. Dünyanın bir nömrəli dövlətinin Prezidentinin səsləndirdiyi fikirlər, onun sülh prosesinə verdiyi dəstək məlumdur. Eyni zamanda böyük şirkətlər, maliyyə korparasiyaları görürlər ki, ABŞ Prezidentinin Azərbaycan dövlətinə hansı münasibəti var. Bu da münasibətlərin yüksək səviyyədə olmasının nəticəsidir. Həmçinin, ABŞ və Azərbaycan Prezidentlərinin çox sıx dostluq münasibətləri anti-Azərbaycan qətnamələrinin qəbul olunması prosesinə mane olur.



***Anar Kəlbiyev***

# Şeyxin ailə şirkətlərində böhran?!

## QMİ sədrinin qızına aid klinika da borca düşdü



***“Zəhra Clinic” Məhdud Məsuliyyətli Cəmiyyətinin dövlət qarşısında vergi borcunun olduğu üzə çıxıb. Bu barədə İqtisadiyyat.az kommersiya qurumlarının dövlət reyestrindən məlumat əldə edib.***

Məlumata görə, “Zəhra Clinic” MMC-nin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 3727.77 manat yığılmış vergi borcu mövcuddur.

Qeyd edək ki, klinika Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadənin qızı Vəfa Paşazadə tərəfindən yaradılıb. Belə ki, “Zəhra Clinic” MMC 2017-ci ildə 100 manat nizamnamə kapitalı ilə dövlət qeydiyyatına alınıb və həmin vaxt qanuni təmsilçisi Vəfa Paşazadə olub. Sonradan isə - 2023-cü ildə o, MMC-nin qanuni təmsilçiliyindən çıxıb və bu vəzifəyə Fərid Hüseyn Fikrət oğlu gətirilib.

Buna baxmayaraq, ümumi cərrah, klinik psixoloq, sağlam qidalanma üzrə mütəxəssis Vəfa Paşazadə klinikaya rəhbərliyi davam etdirib, o, hazırda özəl tibb müəssisəsinin direktoru - baş həkimi vəzifəsindədir.

Məlumat üçün onu da bildirək ki, 2023-cü ildən klinikanın nizamnamə kapitalı da 200 min manat artırılıb.

“Zəhra Clinic”in vergi borcu ortaya çıxdıqdan sonra Şeyxin ailə üzvlərinə məxsus digər şirkətlərin də durumu gündəmə gəlib. İddialara görə, həmin şirkətlərin çoxu hazırda elə də gəlirli deyil.

Bu barədə bir qədər sonra ətraflı danışacağıq. Hələliksə onu xatırladaq ki, Allahşükür Paşazadə 38 ildir ki, Qafqaz Müsəlmanları İdarəsinə sədrlik edir. 1949-cu il avqustun 26-da Lənkəran rayonunun Cil kəndində kəndli ailəsində doğulan QMİ sədri orta məktəbi bitirdikdən sonra 1966-68-ci illərdə sovxozda fəhləlik edib. Yerli ağsaqqallardan gizli şəkildə dini biliklər öyrənən A. Paşazadə 1968-70-ci illərdə Buxarada “Mir-Ərəb” mədrəsəsində təhsil alıb. 1971-ci ildə İmam əl-Buxari adına Daşkənd İslam Universitetinin ilahiyyat fakültəsinə daxil olub və 1975-ci ildə buranı müvəffəqiyyətlə bitirərək tam ali dini təhsilə yiyələnib. 1975-ci ildən Qafqaz Müsəlmanları İdarəsində məsul katib, 1978-ci ildən “Təzəpir” məscidinin axundu, İdarənin sədr müavini vəzifələrində çalışıb. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsinə seçilib və Şeyxülislam rütbəsi alıb. XII Şeyxülislamdır. Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının sədridir. Onun müxtəlif biznes sahələri ilə əlaqələri haqda bu günə qədər xeyli məlumatlar yayılıb. Əsasən ölkəyə ixrac olunan tərəvəz məhsullarının Allahşükür Paşazadənin inhisarında olduğu bilinirdi. Allahşükür Paşazadə bir qayda olaraq belə məlumatlara münasibət bildirmir, bildirəndə isə ortaya sübut qoyulmasını istəyir. Onun bu sıradan olan açıqlamalarından birindən sitat: “Bəzən mənim adımı şüşə, armatur, alma, soğan və kartof biznesi ilə məşğul olan şəxs kimi hallandırırlar. Bunların heç biri həqiqətə uyğun deyil. Bir şey haqqında danışanda ortaya sübut qoymaq lazımdır”.

Lakin bir neçə il öncə Şeyxin və ailə üzvlərinin Çexiyada biznesinin, daşınmaz əmlaklarının olduğunu təsdiqləyən konkret faktlar ortaya çıxmışdı.Bundan əvvəl isə A.Paşazadənin və onun deputat qardaşı Cavanşir Paşazadənin adı bundan əvvəl ölkə daxilində qurulan daha bir biznes layihəsindən doğan mübahisədə hallanmışdı. Məsələnin mahiyyəti bu idi ki, Müğdət Həşimov Paşazadələrlə birgə fəaliyyət haqda müqavilə imzalamışdı. Müqavilə üzrə M.Həşimov Paşazadələrə məxsus “Medi-Sina” klinikasını işlətmiş, sonradan tərəflər arasında mübahisə yaranmışdı. Bundan sonra Paşazadələrin yaxın adamı, “Hacı Mazan” kimi tanınan Ramazan Zeynalov dövriyyəyə girib və onun iddiası əsasında M.Həşimov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il azadlıqdan məhrum edilmişdi. İttihama görə, Paşazadələrə məxsus “Medi-Sina” klinikasına avadanlıqların alınması məqsədilə ayrılmış vəsaitdən 193 min manatın mənimsənilməsində ittiham olunan Müğdət Həşimov özünü təqsirli bilməmişdi.

Son illərdə Şeyxin ailəsinin biznesində geriləmə olduğuna dair iddialar var. Bir müddətdir ki, Allahşükür Paşazadənin ölkəyə tərəvəz məhsulları ixracındakı inhisarına son qoyulduğu deyilir. Həmçinin Paşazadələrə məxsus Karlovı Varıdakı “Aynur KV” şirkətinin də hazırda mövcudluğunu qoruyub saxladığı barədə dəqiq məlumat yoxdur. Çexiyada avtomobillərin lizinqi və kirayəsi, bundan başqa, daşınmaz əmlak alqı-satqısı ilə məşğul olmuş həmin şirkət vaxtilə aylıq 1 milyon kron, yəni təxminən 100 min manat gəlirlə işləyib. İndi isə onun fəaliyyətini davam etdirib-etdirmədiyi bilinmir.

Bundan başqa, vaxtilə yerli media Şeyxin oğlu Məhəmməd Paşazadənin “Baqi” MMC-nin təsisçilərindən biri olduğunu yazırdı. O, eyni zamanda, “Plast-Kabel” MMC-nin də həmtəsisçisi olub. Bu məlumat qarşı tərəfdən nə təsdiq, nə də təkzib edilib. Hazırda hər iki MMC-nin də fəaliyyətsiz olduğuna dair iddialar dolaşır.

Beləliklə, “Zəhra Clinic”in vergi borcu ortaya çıxdıqdan sonra Şeyxin ailə üzvlərinə məxsus digər şirkətlərin də, həqiqətən, yaxşı günlərini yaşamadığına dair iddialarda həqiqət payının yüksək olduğunu düşünmək mümkündür.

***Sənan Mirzə***

# Milli Məclisdə Bəyanat qəbul edəcək




***Milli Məclis Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının 5-ci ildönümü ilə əlaqədar Bəyanat qəbul edəcək.***

”Unikal”ın xəbərinə görə, bununla bağlı məsələ parlamentin payız sessiyası çərçivəsində 30 sentyabrda keçiriləcək ilk iclasının gündəliyinə daxil edilib.

# Parlamentin payız sessiyasının ilk iclasının gündəliyi

***Milli Məclisin payız sessiyası çərçivəsində ilk iclasının gündəliyi açıqlanıb.***



”Unikal” xəbər verir ki, parlamentin payız sessiyası çərçivəsində 30 sentyabrda keçiriləcək ilk iclasının gündəliyinə 12 məsələ daxil edilib.

Gündəliyə təklif olunan məsələlər aşağıdakılardır:

1. Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının 5-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.
2. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında.
3. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (II səsvermə).
4. “Ozon qatını dağıdan maddələr haqqında” Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi.
5. “Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq haqqında” Azərbaycan Respublikası qanununun layihəsi.
6. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
7. “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
8. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi.
9. “Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası”na qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.
10. “Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi.
11. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
12. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 9





## Məhkəmədən Azərbaycanda terrora hazırlıq görən şəxsə 10 il həbs

***Azərbaycanda terrorçuluqda təqsirləndirilən Zeynəddin Hacıyevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim İlham Cəfərzadənin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Ammar Azeri ləqəbi ilə bilinən Zeynəddin Hacıyev adı açıqlanmayan konkret qapalı ictimai məkana silahlı basqınla müşayiət olunan terror əməllərinə hazırlığa görə 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, DTX tərəfindən həbs olunmuş Zeynəddin Hacıyev AR Cinayət Məcəlləsinin 28, 214.2.6-cı (Terrorçuluq, dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə) və digər maddələri ilə ittiham olunur.

## Bakıdan Ağdama müntəzəm avtobus reysi fəaliyyətə başlayır - Bu tarixdən

***"Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə məskunlaşan vətəndaşların keyfiyyətli nəqliyyat xidmətləri ilə təmin olunması məqsədilə Bakı-Ağdam müntəzəm avtobus reysi təşkil edilir.***

"Unikal" xəbər verir ki, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Bildirilib ki, sentyabrın 26-dan Bakı Beynəlxalq Avtovağzal Kompleksindən yola düşəcək avtobusların son dayanacaq məntəqəsi Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksidir. Marşrut xətti üzrə aralıq məntəqə olaraq Quzanlı qəsəbəsi təyin edilib. Avtobuslar Bakıdan Ağdama hər gün saat 08:50-də, əks istiqamətdə isə saat 08:00-da yola düşəcək. Bir istiqamət üzrə gediş haqqı 13,90 AZN təşkil edir. Biletləri yalnız onlayn qaydada "biletim.az" portalı üzərindən əldə etmək mümkündür. Xatırladaq ki, Azərbaycan vətəndaşları "biletim.az" portalı və ya mobil tətbiqi üzərindən bilet əldə edərkən işğaldan azad edilmiş ərazilərə buraxılış üçün icazələr avtomatik qaydada təqdim olunur.

## AQTA yanında Məşvərət Şurası çağırış kampaniyasına start verdi

***Müasir dünyada qida sadəcə gündəlik istehlak vasitəsi deyil, sağlamlığın, rifahın və davamlı gələcəyin əsas təminatıdır. Bu baxışla Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yanında Məşvərət Şurası yeni kampaniyaya başlayıb.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, kampaniyanın əsas məqsədi vətəndaşları ictimai iştirakçılığın həyata keçirilməsi ilə qida zəncirinin hər bir mərhələsində qida təhlükəsizliyinə nəzarətin təmin edilməsinə cəlb etməkdir.

Qida təhlükəsizliyi tək dövlətin deyil, hər kəsin işidir! Gəlin, təhlükəsiz qida ilə sağlam gələcəyə birlikdə addımlayaq!

# Vasif Talıbovdan müəmmalı gediş

## Daha bir sabiq oliqarx pullarını və biznesini ölkədən çıxarır? - İlginc təfərrüatlar

***Naxçıvan Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun oğlu Rza Talıbov Gürcüstandakı lüks oteli yenidən əldə edib. Bu haqda xarici internet resurslarında məlumat yayılıb.***

Məlumatda iddia edilir ki, R. Talıbov "Divan Suites" adlı oteli 2023-cü ilin yanvarında satıb, üstündən iki ildən artıq vaxt keçəndən sonra geri alıb. R. Talıbovun bu ilin mayında Batumidəki oteli geri almaq üçün 8,6 milyon dollar ödəməyə razılaşdığı, bu faktın səhm alqı-satqısı sənədlərində də əksini tapdığı iddia edilir.

"Azpolitika"nın yazdığına görə isə R. Talıbov elektron poçt vasitəsilə ünvanlanan suallara cavabında bildirib ki, otel və sahilyanı əmlak Gürcüstan və Azərbaycan banklarından götürülmüş kreditlər hesabına maliyyələşdirilib. Onun sözlərinə görə, iki il əvvəlki satış və otelin yenidən alınması "aktivlərin və investisiyaların digər potensial hədəflərə yönəldilməsi" strategiyası ilə bağlı olub.



Hazırda otel "London 1889" brendi ilə fəaliyyət göstərir. R. Talıbov bu əmlakı "London 1889"un sahibi olan "B-Pearl Turizm" MMC-nin 100 faiz səhm paketini almaqla əldə edib. Daha sonra həmin şirkət vasitəsilə əlavə daşınmaz əmlak alıb. İyul ayında şirkət Batuminin kənarında yerləşən sahilyanı Maxincauri qəsəbəsində 2 082 kvadratmetrlik torpaq sahəsini 730 min dollara alıb.

Bildirilir ki, bu alış R. Talıbovun Gürcüstanda daşınmaz əmlak biznesinə qayıtdığını göstərir.

Qeyd olunur ki, 2022-ci ildə Rza və qardaşı Seymurun saxta şirkətlərdən şübhəli köçürmələrlə 20 milyon dollardan çox vəsait əldə etdiyinə dair iddialar yayılmışdı. Qardaşların BƏƏ-də və Gürcüstanda 63 milyon dollarlıq əmlaka sahib olduqları da deyilirdi. Həmin vaxt qardaşlar bu iddialara cavab verməmişdilər.

R. Talıbov son tranzaksiyalar barədə sualları isə cavablandırmayıb. O, yalnız qeyd edib ki, Azərbaycan qanunvericiliyinə əsasən, dövlət qulluqçularının hüquqi şəxslərdə səhm və ya pay sahibi olması qadağan olunmayıb. Lakin "Dövlət qulluğu haqqında" Qanunda göstərilir ki, dövlət qulluqçusu qulluq keçdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti barədə maliyyə hesabatı təqdim etməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməlidir.

"Musavat.com" isə yazır ki, iddialara görə, Vasif Talıbov məhz oğlu Seymuru Ali Məclis sədri postuna oturtmaq istəyində imiş. Bildirilirdi ki, Talıbovlar hakimiyyətinin çöküşünə qədər Naxçıvanda bütün idarəetməni qeyri-rəsmi olaraq oğlu Seymur Talıbov həyata keçirirmiş. Seymur Talıbov Naxçıvan Ali Məclisinin deputatı idi, uzun illər Naxçıvan Dövlət Universitetinin prorektoru vəzifəsində işləyirdi. Sitat: "Məlumata görə, Talıbov qardaşları uzun müddətdən sonra avqustun 30-da Bakıda təşkil edilən klassik avtomobillərin sərgisində iştirak ediblər. Qeyd edək ki, son zamanlar Talıbovlara münasibətin bir qədər yumşaldığı, Naxçıvandakı bir sıra obyektlərin, daşınmaz əmlakların onlara qaytarıldığı, onların muxtar respublikanı tərk etmələrinə qoyulmuş qeyri-rəsmi qadağanın götürüldüyü bildirilir".

"Unikal" xatırladır ki, son vaxtlar bəzi sabiq oliqarxların öz pullarını və əmlaklarını müxtəlif yollarla ölkədən çıxarmağa çalışdıqlarına dair xəbərlər intensivləşib. Son olaraq Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin mülklərini satışa çıxardığı, bununla da öz vəsaitlərini başqa ölkələrə yönləndirdiyi yönündə informasiyalar yayılıb. Hətta Mehdiyevin cəmi bir neçə gün ərzində iki villasını satışa çıxardığı aydınlaşıb. KİV əvvəlcə onun Bakıdakı Tbilisi prospektində olan dəbdəbəli villanı 8 milyon ABŞ dollarına satışa çıxarması barədə yazıb. Həmin xəbərdə 36 sot ərazidə yerləşən bu villanın Mehdiyevə Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə himayə etdiyi yüksək vəzifəli şəxslərdən biri tərəfindən hədiyyə olunduğu bildirilirdi. Bu imarətin ardınca Administrasiyanın sabiq rəhbəri daha bir villasını satışa çıxarıb. "Gününsəsi.info"nun məlumatına görə, Şüvəlan bağları, Gülçülük sovxozu adlanan elit ərazidə inşa edilmiş, 1000 kvadratmetr sahəsi olan villa 1 milyon 300 min manata satışa çıxarılıb. Qeyd olunub ki, həmin villa 2018-ci ilə qədər Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış Gülağa İslamov tərəfindən Mehdiyevə hədiyyə edilib. Məlumatda vurğulanıb ki, bahalı villa Mehdiyevin kürəkəni İlham Əliyevin adına sənədləşdirilib.

İndi isə Vasif Talıbovun Gürcüstanın Qara dəniz sahilində lüks otel və başqa bir mülkə nəzarəti bərpa etməsi barədə xəbər onun da biznesini və pullarını ölkədən çıxarmaq cəhdi kimi qiymətləndirilir. Hər nə qədər Talıbovlara münasibətin bir qədər yumşaldığı, Naxçıvandakı bir sıra obyektlərin, daşınmaz əmlakların onlara qaytarıldığı, onların muxtar respublikanı tərk etmələrinə qoyulmuş qeyri-rəsmi qadağanın götürüldüyü bildirilsə də, belə görünür, Ali Məclisin keçmiş sədri əlində qalan sərvətlərini qorumaq və artırmaq baxımından xaricə üz tutmağı daha münasib sayır. Yaxın gələcəkdə Talıbovların səsi Gürcüstanla yanaşı, başqa ölkələrdən də eşidilməyə başlanarsa, bu, kimsəni təəccübləndirməyəcək...

***Sənan Mirzə***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 10



# Deputatın şirkətinə ard-arda cərimə şoku

## Cavanşir Feyziyevə aid olduğu deyilən "Dokta"da nə baş verir? - Təfərrüatlar



***Azərbaycanda apteklər şəbəkəsinə sahib olan "Dokta" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) barəsində növbəti dəfə maliyyə sanksiyası tətbiq edilib. "Qaynarinfo"nun məlumatına görə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən şirkətdə operativ vergi nəzarəti həyata keçirilib.***

Qeyd edək ki, əczaçılıq sahəsində fəaliyyət göstərən "Dokta" MMC 22 sentyabr 2008-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 AZN olan şirkətin qanuni təmsilçisi Muxtarov Elməddin Fəxrəddin oğludur. Ondan əvvəl şirkəti Sadıqov Elçin Ağasadıq oğlu təmsil edib.

Millət vəkili Cavanşir Feyziyev barəsində mediada dərc edilən araşdırma materiallarında da "Dokta" MMC-nin deputata məxsus olduğu iddia edilir. Bu iddiaların təkzib olmasına dair heç bir məlumata rast gəlinmir.

Cavanşir Feyziyevin həm də "Avromed" şirkətinin sahibi olduğu bildirilir. "Avromed" şirkəti dərman bazarının ən iri şirkətlərindən hesab edilir. Həmçinin, dərman şirkəti və apteklər şəbəkəsi olan "Buta Farm" MMC-nin də Feyziyevə məxsus olduğu barədə yerli media dəfələrlə yazıb. Lakin bu iddia da deputat tərəfindən nə təsdiq, nə də təkzib edilib.

Maraqlı burasıdır ki, cari ilin 9 ayı ərzində "Dokta" MMC-də aparılan operativ vergi nəzarəti üzrə əczaçılıq şirkəti bir dəfə 1000 manat, 6 dəfə isə ayrı-ayrılıqda daha yüksək məbləğdə - 6000 min manat maliyyə sanksiyası tətbiq edilib. Həmin cərimələr barədə qərar əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayyət olunması vəziyyəti haqqında AKT-a əsasən verilib. Bundan başqa, fevralda şirkət aptek təşkilatlarına dair tələbləri pozduğuna görə cərimələnib. Müvafiq qurum tərəfindən MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 452.1-ci (Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılmasına və ya yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarının pozulmasına görə) maddəsinə əsasən cərimə protokolu tərtib edilib. Daha sonra protokol baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilib. Məhkəmədə barəsində protokol tətbiq edilmiş MMC ilə bağlı müraciətə baxılıb. Hakim Cəmilə Səfiyevanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib.

Xatırladaq ki, sözügedən inzibati xətaya görə yüz əlli manatdan iki yüz əlli manatadək məbləğdə cərimə edilir.

Elə ötən il də Cavanşir Feyziyevə aid edilən şirkət dəfələrlə cərimələrə məruz qalıb. Hətta bunlardan biri adıçəkilən şirkətin apteklər şəbəkəsində saxta dərmanların aşkarlanması ilə bağlı olub. Belə ki, ötən ilin sonlarında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 221.1-ci (Bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, bu əməllər az miqdarda törədildikdə) maddəsinə əsasən cərimə protokolu tərtib edilib. Daha sonra protokol baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. Məhkəmədə barəsində protokol tətbiq edilmiş MMC ilə bağlı müraciətə baxılıb. Hakim Gültəkin Əsədovanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib.

Xatırladaq ki, sözügedən inzibati xətaya görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

Ötən ilin təkcə avqust ayında isə haqqında danışdığımız məşhur apteklər şəbəkəsinə bir neçə dəfə külli miqdarda cərimə protokolu yazılıb. "Dokta" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 452.4-cü (Aptek təşkilatlarına dair tələblərin pozulması) maddəsi ilə iki protokol tərtib olunub. Bunlardan birinə Ağdaş rayon məhkəməsində, digərinə isə Abşeron Rayon Məhkəməsində baxılıb və şirkət bir neçə min manat dəyərində cərimələnib.

Bir sözlə, deputat Cavanşir Feyziyevə aid olduğu bildirilən "Dokta"nın başı son illərdə cərimələrdən açılmır. Ən qəribəsi isə odur ki, şirkət bir qayda olaraq eyni nöqsanlara görə cəzalandırılır, lakin bu cərimələr adı çəkilən MMC-yə, necə deyərlər, dərs olmur, eyni nöqsanları təkrarlamağa davam edir.

***Toğrul Əliyev***



# Baş prokuror Özbəkistana səfər etdi - Sənəd imzalandı

***Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 24-də Özbəkistana rəsmi səfərə gəlib.***

"Unikal" xəbər verir ki, əvvəlcə Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüşdə ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, o cümlədən prokurorluq orqanları arasında olan yüksək səviyyəli əməkdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib. O, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını bildirərək, təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Özbəkistan - Azərbaycan münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də inkişaf etdirildiyini, hər iki dövlət başçısının siyasi iradələrinin təzahüri kimi 23 avqust 2024-cü il tarixdə Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"dən sonra reallaşan strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini qeyd edib.

Baş prokuror, həmçinin, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi zəfərdən sonra, Özbəkistan dövləti tərəfindən Qarabağda aparılan geniş quruculuq bərpa işlərinə göstərilmiş dəstəyi xüsusi vurğulayaraq, 23 avqust 2023-cü il tarixdə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını, hər iki dövlət başçısının iştirakları ilə cari ilin 2 iyul tarixində Bakı şəhərində Özbəkistan səfirliyinin yeni binasının açılışını və həmin tarixdə dövlət başçıları tərəfindən "Özbəkistan" parkının təməlinin qoyulmasını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində Baş prokurorlar tərəfindən mövcud sahəvi əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında 2026-2027-ci illər üçün nəzərdə tutulmuş Əməkdaşlıq Proqramı" imzalanıb.

Proqramda tərəflərin "Cinayət yolu əldə edilmiş aktivlərinin xaricdən qaytarılması mexanizmləri" mövzusunda seminarda, prokurorluq orqanlarının kadr hazırlığı və ixtisasartırılması üzrə Özbəkistan Respublikasının Hüquqmühafizə Akademiyasının illik konfransında iştirakları, həmçinin "Prokurorun işlərə məhkəmələrdə baxılmasında iştirakı" mövzusunda seminarın və "Prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması" mövzusunda "dəyirmi masanın" təşkili nəzərdə tutulub.

Bundan başqa, Baş prokuror Kamran Əliyev sentyabrın 25-də Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının 4-cü iclasında iştirak edib.

Baş prokuror çıxışında mühüm tədbirin təşkilinə görə Özbəkistan Respublikasının Baş prokuroru Niqmatulla Yuldaşevə dərin minnətdarlığımı bildirib, Azərbaycan Respublikasında ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi rəqəmsallaşma və elektron idarəetmənin inkişafı olduğunu vurğulayaraq, Azərbaycan Prokurorluğunun fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini işıqlandırıb.

Nümayəndə heyətinin səfəri davam edir.

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 11



# Əlisəmid Kürlə bağlı Mehriban Əliyevaya müraciət edildi

***Bir qrup ictimai xadim tanınmış şair Əlisəmid Kürün səhhəti ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Mehriban Əliyevaya müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir:

"Hörmətli Mehriban xanım,

Heydər Əliyev Fondu yarandığı gündən etibarən Azərbaycanın mədəniyyət, elm, ədəbiyyat və incəsənət xadimlərinə daim yüksək diqqət və qayğı göstərmiş, humanizm və xeyirxahlıq nümunəsi kimi həm ölkə daxilində, həm də beynəlxalq miqyasda böyük rəğbət qazanmışdır. Bu nəcib fəaliyyətinizə görə Sizə dərin minnətdarlığımızı çatdırırıq.

Məlumat üçün bildirmək istərdik ki, Azərbaycanın tanınmış şairi, 80-ci illər ədəbi nəslinin istedadlı nümayəndəsi Əlisəmid Kürün səhhətində ciddi problemlər yaranmışdır. O, sentyabrın 15-i axşam saatlarında qaraciyər və böyrək çatışmazlığı diaqnozu ilə Respublika Diaqnostika Mərkəzinin reanimasiya şöbəsinə yerləşdirilib. 18 sentyabr tarixində isə Respublika Klinik Xəstəxanasının Reanimasiya şöbəsinə yerləşdirilən Əlisəmid Kürün vəziyyəti hazırda ağır olaraq qiymətləndirilir.

Əlisəmid Kür Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində redaktor, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında və Azərbaycan Teatr Muzeyində müxtəlif vəzifələrdə çalışıb. 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1989-cu ildə AYB-nin Ədəbiyyatı Təbliğ və Müəllif Hüquqları bürosunda şöbə müdiri, Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin "Yol" ədəbiyyat qəzetində şöbə müdiri, 1991-1994-cü illərdə "Yol" ədəbiyyat qəzetinin baş redaktoru vəzifəsində işləyib. 1989-1995-ci illərdə AYB-nin idarə heyətinin üzvü olub. Şeirləri dünyanın müxtəlif dillərinə tərcümə olunub, şeir almanaxlarında, ədəbi dərgilərdə dərc olunub. 20 il ərzində dünyanın bir çox şəhərlərində təşkil edilən şeir toplantılarında Azərbaycanı təmsil edib. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin "Xəzər" dünya ədəbiyyatı dərgisinin məsul katibi kimi fəaliyyət göstərib.

Sizin humanizm və ədəbiyyat xadimlərinə qayğı ənənənize güvənərək, hörmətli şairimizin müalicəsinin Heydər Əliyev Fondunun nəzarətinə götürülməsini və onun sağlamlığının bərpası üçün zəruri tədbirlərin görülməsini xahiş edirik.

Əvvəlcədən təşəkkürümüzü bildirir, Sizə möhkəm can sağlığı və fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Hörmətlə,**
**Nəriman Həsənzadə, Xalq şairi**
**Ramiz Rövşən, Xalq şairi**
**Sabir Rüstəmxanlı, Xalq şairi**
**Vahid Əziz, Xalq şairi**
**Afaq Məsud, Xalq yazıçısı**
**Çingiz Abdullayev, Xalq yazıçısı**
**Nizami Cəfərov, akademik**
**Rasim Balayev, Xalq artisti**
**Hacı İsmayılov, Xalq artisti**
**Şeyx Əbdül Mahmudov, Xalq artisti**
**Hüseyn Haqverdi, Xalq rəssamı**
**Aqil Abbas, deputat, yazıçı**
**Səyyad Aran, deputat, yazıçı**
**Elnarə Akimova , deputat, ədəbiyyatşünas**
**Rüstəm Behrudi, şair**
**Umud Rəhimoğlu, Əməkdar Mədəniyyət işçisi**
**Azər Turan, Əməkdar Mədəniyyət işçisi**
**Elçin Hüseynbəyli, Əməkdar İncəsənət xadimi**
**Səlim Babullaoğlu, şair**
**İlqar Fəhmi, Əməkdar Mədəniyyət işçisi**
**Məhəmmədhüseyn Hüseynov, Əməkdar rəssam**
**Vüqar Muradov, Əməkdar rəssam**
**Natik Səfərov, Əməkdar rəssam**
**Azad Əliyev, Əməkdar rəssam**
**İlqar Əlfi, Əməkdar jurnalist**
**Qabil Abbasoğlu, Əməkdar jurnalist**
**Yusif Rzayev, Əməkdar jurnalist**
**Paşa Qəlbinur, şair, həkim**
**Saday Budaqlı, yazıçı**
**Fəxri Uğurlu, yazıçı**
**Etimad Başkeçid, yazıçı**
**Şərif Ağayar, yazıçı**
**Mübariz Örən, yazıçı**
**İlham Əziz, yazıçı**
**Aqşin Yenisey, şair**
**Qismət Rüstəmov, şair**
**Mirmehdi Ağaoğlu, yazıçı**
**Şəhriyar del Gerani, şair**
**Ülviyyə Heydərova, yazıçı-dramaturq**
**Fərid Hüseyn, şair**
**Vasif Ayan, jurnalist**

# "BakuBus"da 87 milyon manatlıq müəmma

## Hərəsi yarım milyon manata alınan 160 avtobus ətrafında mübahisə qopdu - Nə baş verir?

***"BakuBus" MMC ötən il 160 ədəd elektrikli avtobus və onlara aid şarj cihazlarını 86,962 milyon manata satın alıb. Hər bir avtobusun dəyəri təxminən 543,500 manat təşkil edib. Lakin "Azpolitika"nın apardığı araşdırma nəticəsində məlum olub ki, bir avtobus üçün ödənilən məbləğ bazar qiymətlərindən 20-30% yüksəkdir.***

Bazarda BYD K9UD model avtobusların qiyməti 300-450 min manat arasında dəyişir. "BakuBus" MMC-nin ödədiyi məbləğ isə hər bir avtobus üçün 543,500 manatdır. Bu da göstərir ki, ödəniş bazar qiymətindən xeyli yüksəkdir. Qiymət fərqi idxal xərcləri, gömrük rüsumları, vergi, lokal spesifikasiyalar və müqavilə şərtləri ilə əsaslandırılsa da, müqavilənin və qiymətlərin ictimaiyyətə açıqlanmaması ciddi tənqidlərə səbəb olub.




Avtobusların texniki göstəriciləri belədir:

Model: BYD K9UD:

-Uzunluq: 12,2 metr; Batareya gücü: 422 kWh; Maksimum məsafə: 450 km; Elektrik mühərriki: 2 ? 150 kW; İstismar müddəti: 15 il.

Əlavə olaraq, 100 ədəd şarj cihazı da alınıb.

Şirkət tərəfindən verilən açıqlamada qeyd olunub ki, bu avtobuslar sıfır emissiya texnologiyası ilə təchiz olunub və Bakı şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədi daşıyır.

Lakin "BakuBus" MMC-nin Çin istehsalına üstünlük verməsinin səbəbləri izah edilmir. Halbuki bu sahədə bir sıra ölkələrin istehsalçı şirkətləri daha keyfiyyətli və uyğun qiymətli avtobuslar təklif edir.

Bazar təhlillərinə əsasən:

- Çin istehsalı olan "ZhongTong" avtobusları nisbətən ucuzdur və batareya texnologiyası sahəsində lider sayılır. Ehtiyat hissələri də münasib qiymətə başa gəlir. Lakin logistika xərcləri və müqavilə şərtləri qiymətin artmasına səbəb ola bilər;

- Türkiyə istehsalı olan "Temsa", "Karsan" və "Otokar" avtobusları həm ucuz, həm də logistik baxımdan sərfəlidir. Bu markalar lokal servis və ehtiyat hissələri ilə təmin etsə də, bəzi modellər hələ də beynəlxalq sertifikatlaşdırma və test mərhələsindədir;

- Cənubi Koreya istehsalı olan "Hyundai" və "KİA" avtobusları yüksək keyfiyyət və enerji səmərəliliyi ilə seçilir, lakin qiymət baxımından Çin və Türkiyə istehsalı ilə müqayisədə daha bahadır;

- Avropa istehsalı olan "Mercedes-Benz", MAN, "Solaris" və "Volvo"** markalı avtobuslar uzunömürlü və yüksək təhlükəsizlik standartlarına malikdir. Lakin qiymətləri daha yüksəkdir və idxal xərcləri əlavə olunur.

Nəticə olaraq, qiymət və keyfiyyət balansı baxımından Türkiyə və Avropa istehsalı avtobuslar həm daha sərfəli, həm də coğrafi baxımdan praktik alternativ ola bilərdi. Yəni 543,500 manata "BakuBus" MMC daha keyfiyyətli texnika əldə edə bilərdi.

MMC-nin elektrikli avtobus alışları ekoloji məqsədlər daşısa da, iqtisadi səmərəlilik və şəffaflıq baxımından ciddi suallar doğurur. Ödənilən qiymət bazar ortalamasından xeyli yüksəkdir. Şirkət isə nədənsə digər ölkələrin istehsalçılarını və modellərini nəzərdən keçirməyib. Müqavilə şərtləri və qiymətlərin ictimaiyyətə açıqlanmaması da haqlı tənqidlərə səbəb olur.

Bu alış Bakı şəhərinin nəqliyyat sisteminin elektrikləşdirilməsi yolunda başlanğıc sayılsa da, daha ucuz və keyfiyyətli alternativlərin qiymətləndirilməsi vacib idi.

"Unikal" xatırladır ki, "BakuBus" Nazirlər Kabinetinin 03.04.2014-cü il tarixli, 92 nömrəli qərarı ilə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində dövlət müəssisəsi olaraq yaradılıb. Yaradıldıqdan qısa müddət sonra bu qurum xüsusilə qeyri-şəffaflıq və korrupsiya iddiaları səbəbindən ciddi tənqidlərə tuş gəlib. Bundan sonra - 2018-ci ildə "BakuBus" Bakı Nəqliyyat Agentliyinin tabeliyinə verilib. Lakin onun fəaliyyətində yenə də müsbət dönüş hiss olunmayıb, hətta korrupsiya iddiaları bir az da qüvvətlənib. Nəticədə "BakuBus"un idarəetməsi yenidən dəyişdirilib - 2021-ci ildə bu MMC Azərbaycan İnvestisiya Holdinqinin nəzarətinə keçib. Qurumla bağlı tənqidlər, ittihamlar azalmayınca son olaraq "BakuBus"un fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün Müşahidə Şurası yaradılıb.

Ötən ilin aprelində "BakuBus" MMC-nin direktoru Elnur Qarayev vəzifəsindən azad edilib. Həmin tarixdən şirkətə rəhbərlik Hikmət Qəribov Əbdürrəhman oğluna həvalə olunub.

11 illik tarixi boyunca tabeliyinə verildiyi qurumların və rəhbərliyindəki şəxslərin davamlı şəkildə dəyişməsinə baxmayaraq, "BakuBus"la bağlı tənqidlərin motivləri dəyişməyib. Şirkət qeyri-şəffaflıq, şübhəli satınalmalar səbəbindən tənqid hədəfinə çevrilməyə davam edir. Son olaraq hərəsi yarım milyon manatdan artıq qiymətə alınan 160 avtobusla bağlı iddialar da eyni qəbildəndir.

***Toğrul Əliyev***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 12



## 5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Uşaqların fiziki sağlamlığı təhsil mühitində

### *Kamran Əsədov: "Gələcəkdə fiziki tərbiyə saatlarının artırılması ilə yanaşı, dərslərin məzmununda da islahatlar aparılmalıdır"*

***Gənc nəslin fiziki və mənəvi sağlamlığı sağlam cəmiyyətin formalaşması baxımından çox əhəmiyyətlidir. Uşaqların təkcə ailədə deyil, təhsil müəssisələrində də sağlamlığının qorunması, onların fiziki baxımdan inkişafı dövlətin diqqət mərkəzindədir. Bu baxımdan ümumtəhsil müəssisələrində fiziki tərbiyə fənni tədris olunur.***



Məktəblərdə fiziki tərbiyə fənninin əhəmiyyəti yalnız şagirdlərin idman bacarıqları ilə məhdudlaşmır, bu dərslər onların sağlamlığının qorunmasına, düzgün fiziki inkişafına, nizam-intizamlı və aktiv həyat tərzinə alışmasına xidmət edir.

Bəs görəsən uşaqların fiziki inkişafını təmin edən fiziki tərbiyə fənninə ayrılan saatlar qənaətbəxşdirmi?

Təhsil üzrə ekspert Kamran Əsədov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, fiziki tərbiyə fənninin məktəblərdə tədrisi çox əhəmiyyətlidir. "Təhlillər göstərir ki, Azərbaycan məktəblərində hazırda fiziki tərbiyə dərslərinə həftəlik 1-2 saat ayrılır. Bu göstərici Dünya Səhiyyə Təşkilatının uşaqlar üçün müəyyən etdiyi minimum fiziki aktivlik norması ilə müqayisədə xeyli aşağıdır. Təşkilatın məlumatına görə, məktəbyaşlı uşaqların sağlam inkişafı üçün gündə azı 60 dəqiqə orta və yüksək intensivlikli hərəkət tələb olunur. Bu fakt göstərir ki, mövcud dərs saatları nəzəri cəhətdən uşaqların ehtiyaclarını ödəməyə kifayət etmir".

K.Əsədov deyir ki, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 23-cü maddəsində təhsilalanların sağlamlığının qorunması, onların fiziki inkişafının təmin olunması dövlətin əsas vəzifələrindən biri kimi təsbit olunub. Bu qanunun maddəsinə baxanda görünür ki, fiziki tərbiyə dərsləri yalnız əlavə məşğələ deyil, təhsil prosesinin strateji elementidir. Lakin hazırkı reallıqda məktəblərdə idman zalları və meydançalarının çoxunun texniki vəziyyəti qənaətbəxş deyil, bölgələrdə isə bəzi məktəblərin heç idman zalı mövcud deyil. Bu da fiziki tərbiyə fənninin keyfiyyətinə mənfi təsir göstərir.

"Müsbət tərəf ondan ibarətdir ki, son illər Elm və Təhsil Nazirliyi məktəblərdə sağlam həyat tərzinin təşviqi üçün müxtəlif layihələr həyata keçirir. "Sağlam məktəbli" təşəbbüsü, məktəblərin yeni idman avadanlıqları ilə təmin edilməsi, beynəlxalq yarışlarda uğur qazanan şagirdlərin dövlət səviyyəsində mükafatlandırılması bu siyasətin real nəticələridir. Nazirliyin bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir və gələcəkdə bu sahədə davamlı inkişaf üçün baza yaradır", - deyə müsahibimiz bildirib.

O, vurğulayıb ki, dünya təcrübəsinə nəzər saldıqda görürük ki, inkişaf etmiş ölkələrdə fiziki tərbiyə fənninə daha geniş yanaşılır:"Finlandiyada ibtidai siniflərdə həftəlik 3-4 saat, Yaponiyada 2-3 saat, ABŞ-da isə məktəblilərin gün ərzində dərslərarası fasilələrdə də aktiv fiziki fəaliyyət göstərməsi təmin olunur. Bu modellər göstərir ki, yalnız rəsmi dərs saatlarının artırılması deyil, həm də məktəb gündəliklərinə fiziki aktivlik mədəniyyətinin daxil edilməsi vacibdir. Azərbaycan üçün də bu istiqamətdə dəyişikliklərin tətbiqi labüddür.

Mənfi tərəfi odur ki, hazırkı proqramlar əsasən klassik idman növlərinə fokuslanır və şagirdlərin fərdi maraq və potensiallarını tam əhatə etmir. Halbuki müasir təcrübədə yoqa, pilates, parkur, açıq hava oyunları, həmçinin rəqəmsal texnologiyaların tətbiqi ilə aktivlik ölçümü dərslərə inteqrasiya olunur. Bu yanaşmalar şagirdlərdə həm motivasiya yaradır, həm də onların fiziki inkişafını fərdiləşdirilmiş formada təmin edir. Əgər belə yeniliklər proqramlara daxil edilərsə, uşaqlar idman dərslərinə məcburi deyil, maraqlı fəaliyyət kimi yanaşar.

Azərbaycanda fiziki tərbiyə dərslərinin məzmunu əsasən klassik idman növləri - yüngül atletika, gimnastika, futbol, basketbol və s. üzərində qurulub. Halbuki müasir yanaşmalar göstərir ki, uşaqların fiziki inkişafı yalnız idman bacarıqları ilə ölçülməməli, həm də sağlam həyat tərzinə alışdırmaq, fiziki hərəkətlərin gündəlik həyatın bir hissəsinə çevrilməsi ilə təmin olunmalıdır. Burada ən vacib yeniliklərdən biri dərs proqramına yeni məzmun elementlərinin əlavə edilməsidir. Məsələn, yoqa və pilates kimi elastiklik və nəfəs texnikasına yönələn məşqlər, parkur və ya açıq hava fəaliyyətləri kimi müasir hərəkət formaları uşaqların marağını artıra və fənni daha funksional edə bilər.

Bundan əlavə, dərslərin keçirilmə metodikasında dəyişikliklər vacibdir. Hazırda bir çox məktəbdə fiziki tərbiyə dərsləri ənənəvi "qızışma-tapşırıq-oyun" sxemi ilə keçirilir. Halbuki yeni yanaşmalarda fərdiləşdirilmiş məşq proqramları, uşaqların fiziki göstəricilərinə uyğun adaptiv hərəkətlər və rəqəmsal texnologiyalarla inteqrasiya (məsələn, addımölçənlər, mobil tətbiqlərlə aktivlik izləmə) tətbiq olunur. Bu, uşaqları daha çox həvəsləndirir və nəticəni ölçməyə imkan verir.

Hesab edirəm ki, gələcəkdə fiziki tərbiyə saatlarının artırılması ilə yanaşı, dərslərin məzmununda da islahatlar aparılmalıdır. Elm və Təhsil Nazirliyinin atdığı addımlar müsbət və strateji xarakter daşıyır, lakin bu proses yalnız struktur dəyişikliyi ilə bitməməli, dərs proqramları beynəlxalq təcrübəyə uyğun yenilənməli, müəllimlər yeni metodikaya hazırlanmalıdır. Əgər bu istiqamətlərdə irəliləyişlər davam etdirilərsə, yaxın illərdə Azərbaycan məktəblərində fiziki tərbiyə fənni uşaqların həm sağlam inkişafına, həm də sosiallaşmasına real töhfə verəcək".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Erkən nikaha daxil olan qızların əksəriyyətinin ailə həyatı uğursuz olur

***Erkən nikaha daxil olan qızların əksəriyyətinin uğursuz ailə həyatı olur.***

"Unikal" xəbər verir ki, bunu "Gender bərabərliyi və gender-əsaslı ayrı-seçkilik" mövzusunda təlim proqramında çıxışı zamanı Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Sədr müavini Sədaqət Qəhrəmanova deyib.

O bildirib ki, bu kimi uğursuz halların qarşısını almaq üçün qızların təhsilə cəlb olunması istiqamətində maarifləndirilmə işləri aparılmalıdır.

Sədr müavini, həmçinin vurğulayıb ki, komitə tərəfindən bu istiqamətdə "Qız uşaqların təhsilinə dəstək" layihəsi həyata keçirilir.

## Şəhərdə sakitliyin qorunması hər kəsin məsuliyyətidir - DYP

***Şəhər mühitində ictimai asayişin, insanların dinc yaşayışının və yol hərəkəti təhlükəsizliyinin təmin olunması hər bir hərəkət iştirakçısının üzərinə məsuliyyət qoyur.***



"Unikal" xəbər verir ki, bu barədə Baş DYP İdarəsinin müraciətində qeyd edilib. Bildirilib ki, nəqliyyat vasitələrində yüksək səslə musiqi dinləmək, əsassız səs siqnalından istifadə etmək, habelə insanların sıx məskunlaşdığı yaşayış zonalarında, məktəb və xəstəxana ətraflarında avtomobillərin yüksək sürətlə idarə olunması nəticəsində səs-küy yaradılması yolverilməzdir: "Bu cür davranışlar yalnız yol hərəkəti intizamına mənfi təsir göstərmir, eyni zamanda sürücülər və piyadalar arasında çaşqınlıq və gərginlik yaradır, ictimai asayişi pozur və qəza riskini dəfələrlə artırır.

Qanunvericiliyin tələbinə görə, səs siqnalından istifadə yalnız xüsusi zərurət yarandıqda - yol-nəqliyyat hadisəsinin qarşısını almaq, insan həyatına və sağlamlığına birbaşa təhlükə mövcud olduğu hallarda icazəlidir.

Qaydalara əməl olunması, intizamlı davranış və qarşılıqlı hörmət prinsiplərinə riayət edilməsi yol hərəkəti təhlükəsizliyinin qorunmasında mühüm rol oynayır. Sürücülərin məsuliyyətsiz hərəkətləri ictimai mühitdə narahatlıq yaratmaqla yanaşı, qəza ehtimalını artıraraq insanların həyat və sağlamlığını riskə atır.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha bütün sürücülərin diqqətinə çatdırır ki, nəqliyyat vasitələrinin idarə olunması zamanı səs-küyə səbəb olan hərəkətlərdən çəkinmək, qanunvericiliyin tələblərinə riayət etmək və yol hərəkəti qaydalarına hörmətlə yanaşmaq hər kəsin borcudur".

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 13



# Türkiyə universitetlərinin rektorları Diaspor Komitəsində olub

***Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Türkiyənin Şərqi Anadolu bölgəsindəki universitetlərin rektorlarının və İğdır Azərbaycan Evinin rəhbərinin daxil olduğu Türkiyə nümayəndə heyəti ilə görüşüb.***

”Unikal” xəbər verir ki, qonaqları səmimi salamlayan Fuad Muradov Azərbaycan və Türkiyə prezidentlərinin dostluq münasibətlərinin xalqlar və millətlər arasındakı mövcud bağları daha da möhkəmləndirdiyini, bütün sahələrdə birgə fəaliyyətə stimul verdiyini qeyd edib.

Komitənin həyata keçirdiyi layihələrin, xüsusilə Şərqi Anadoluda reallaşan layihə və görüşlərin müsbət nəticələri barədə məlumat verilib, ali məktəblərlə səmərəli əməkdaşlığın, elm adamlarının yetişdirilməsinin və üzə çıxarılmasının vacibliyindən danışılıb.

Dövlət başçısının Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Zəfər Qurultayındakı tarixi nitqində səsləndirdiyi “Əlbəttə, biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar” fikrini xatırladan komitə sədri əslən Qərbi Azərbaycandan olan, hazırda Şərqi Anadoluda yaşayan soydaşlarımızla bağlı həyata keçirilən layihələrə, onlarla görüşlərə diqqət çəkib.

Səmimi qəbula görə təşəkkür edən qonaqlar Azərbaycanda olmaqdan məmnunluq duyduqlarını, bu səfərin onlar üçün böyük əhəmiyyət daşıdığını dilə gətirib, səfərə göstərilən dəstəyə görə minnətdarlıqlarını bildirib, eyni dil, din və mədəniyyət daşıyıcısı olmağımızın üstünlüklərindən danışıblar.

Müxtəlif ali məktəblərin rektorları Şərqi Anadolu bölgəsində yaşayan azərbaycanlıların Türkiyənin elm və mədəniyyətinə böyük töhfələr verdiyini, heç bir assimilyasiyaya məruz qalmadan cəmiyyətin ayrılmaz parçasına çevrildiyini deyiblər. Nümayəndə heyətinin üzvləri bu günə qədər həyata keçirilən layihə və görüşlərin əhəmiyyətinə diqqət çəkib, səmərəli tərəfdaşlığın davam etdirilməsinin vacibliyini söyləyiblər.

Görüşdə türkdilli dövlətlərin vahid diasporunun yaradılması, Azərbaycan və Türkiyənin “yumşaq güc”ünün daha da möhkəmlənməsi, DİDK-nın Türkiyədə yaşayan azərbaycanlılarla əlaqələrinin intensivliyi, universitetlərlə ortaq layihələrin həyata keçirilməsi, Şərqi Anadoluda yaşayan azərbaycanlıların ali təhsilə maraqlarının artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Komitə sədrinin Qars və İğdır bölgələrinə səfəri zamanı oradakı Azərbaycan icması ilə, eləcə də hər iki bölgənin rəsmi şəxsləri ilə görüşdüyü, həmçinin Qars Qafqaz Universitetini ziyarət etdiyi, ali məktəbin müəllim və tələbə heyəti ilə yaxından tanış olduğu nəzərə çatdırılıb. Bununla yanaşı, komitənin mütəmadi olaraq Türkiyədəki diaspor təşkilatları ilə birgə 20 Yanvar faciəsi, Xocalı soyqırımı və ölkəmizin digər önəmli günləri ilə bağlı kütləvi tədbirlər keçirdiyi, müxtəlif şəhərlərdə bayram günləri münasibətilə böyük konsert proqramları təşkil etdiyi xatırladılıb. Həmin tədbirlərdə minlərlə azərbaycanlının, eləcə də türklərin və ölkəmizi sevən digər xalqların nümayəndələrinin iştirak etdiyi vurğulanıb. Yaxın vaxtlarda Şərqi Anadoluda yaşayan azərbaycanlı gənclərinin forumunun keçirilməsinin də planlaşdırıldığı bildirilib.

Qonaqlara İğdır Azərbaycan Evinin uğurlu fəaliyyəti haqqında danışılıb və ümumilikdə 20 ölkədəki 31 Azərbaycan Evinin xaricdə yaşayan soydaşlarımızın birliyinin möhkəmlənməsi, onların ana dilini, milli adət-ənənələri qoruyub saxlamaları üçün yeni imkanlar yaradan əhəmiyyətli platforma olduğu diqqətə çatdırılıb.

Qeyd edək ki, nümayəndə heyətinə İğdır Azərbaycan Evinin rəhbəri Ziya Zakir Acar, İğdır Universitetinin rektoru Ekrem Gürel, Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu, Artvin Çoruh Universitetinin rektoru İbrahim Aydın, Ağrı İbrahim Çeçen Universitetinin rektoru İlhami Gülçin, Bolu İzzet Abant Baysal Universitetinin rektoru Mustafa Alişarlı, Ərzurum Texniki Universitetinin rektoru Bülent Çakmak, Van Yüzüncü Yıl Universitetinin rektoru Hamdullah Şevli, Ardahan Universitetinin rektoru Öztürk Emiroğlu daxildir.

Bir neçə gün ölkəmizdə səfərdə olacaq Türkiyə nümayəndə heyətinin Qarabağın müxtəlif bölgələrinə səfərləri, regionun nüfuzlu ali məktəblərindən olan Qarabağ Universitetinin kollektivi ilə görüşləri də nəzərdə tutulur.

# “Konstitusiya və Suverenlik İli”

***Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.***

Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə geniş miqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.



Konstitusiya ili çərçivəsində keçirilən tədbirlər, vətəndaşların öz hüquq və azadlıqları barədə daha çox məlumat əldə etmələrini, hüquq mühafizə orqanlarının təkmilləşməsini və cəmiyyətin konstitusional biliklərini artırmağı hədəfləyir. Bu, həm də dövlətin suverenliyinin və beynəlxalq hüququn təmin edilməsinin əsasını təşkil edir.

Azərbaycanın suverenliyini qorumaq və dünya miqyasında tanımaq üçün, ölkə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, eyni zamanda öz milli maraqlarını qorumağa çalışır. Bu kontekstdə, Konstitusiya ili, vətəndaşların hüquq və azadlıqlarının daha yaxşı başa düşülməsi və müdafiə edilməsi ilə yanaşı, dövlətin beynəlxalq hüquq sahəsindəki mövqeyinin gücləndirilməsi məqsədi güdür.

Konstitusiya ili, dövlətin hüquq sistemini və demokratik prinsiplərini təkmilləşdirmək, suverenliyini gücləndirmək üçün mühüm bir imkandır. Bu, həm də cəmiyyətin hüquq və azadlıqlarını daha yaxşı başa düşməsi və müdafiə etməsi ilə əlaqədardır. Hər bir dövlət, konstitusional hüquq və suverenlik prinsiplərini qorumaqla yalnız daxili təhlükəsizlik deyil, həm də beynəlxalq aləmdə mövqeyini möhkəmləndirə bilər.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

”Hər bir xalqın və dövlətin tarixində onun müstəqilliyini, azadlığını və suverenliyini əks etdirən önəmli günlər vardır. Azərbaycan tarixində belə mühüm günlərdən biri də 20 Sentyabr - Dövlət Suverenliyi Günüdür. Bu gün, ölkəmizin suveren dövlət kimi mövcudluğunu, xalqın öz taleyinə sahib çıxmaq əzmini və dövlət müstəqilliyinin bərqərar olunmasında atılmış əhəmiyyətli addımı təcəssüm etdirir.1991-ci ilin əvvəllərində Sovet İttifaqında baş verən siyasi, iqtisadi və sosial böhranlar ittifaq respublikalarında müstəqillik hərəkatlarını gücləndirdi. Azərbaycan xalqı da öz azadlığı və dövlət suverenliyi uğrunda mübarizəyə qalxmışdır. Bu hərəkatın nəticəsi olaraq, 1991-ci ilin 20 sentyabrında Azərbaycan Respublikasının Ali Soveti ”Azərbaycan Respublikasının Dövlət Suverenliyi haqqında” Konstitusiya Aktını qəbul etdi. Bu sənəd Azərbaycan dövlətçiliyinin bərpası yolunda atılan həlledici addımlardan biri oldu. Konstitusiya Aktı Azərbaycanın siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə müstəqilliyini təsdiqlədi. Azərbaycan xalqının öz taleyini özü müəyyən etmək hüququ tanındı, respublikanın qanunvericilik və idarəetmə orqanları tam müstəqil fəaliyyət göstərməyə başladı”.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

”2024-cü ilin 19 sentyabr tarixində Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Beləliklə, hər il 20 Sentyabr - Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

Suveren dövlət - beynəlxalq hüquqda ali hakimiyyəti təmsil edən, öz dövlətinin daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və hansısa bir coğrafi ərazidə suverenliyi olan dövlət deməkdir. Dövlət suverenliyi - hər bir xalqın azad yaşamaq, özünü idarə etmək, milli dəyərlərini qorumaq və inkişaf etdirmək hüququdur. Bu prinsip beynəlxalq hüququn əsasını təşkil edir. Azərbaycan üçün suverenlik təkcə siyasi müstəqillik deyil, həm də iqtisadi azadlıq, mədəni dəyərlərin qorunması və milli maraqların təmin olunması deməkdir.

20 Sentyabr - Dövlət Suverenliyi Günü, xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin simvoludur. Bu gün, yalnız tarixə nəzər salmaqla kifayətlənmir, həm də gələcək nəsillərə dövlətçilik ruhunun aşılanması, milli birlik və həmrəyliyin möhkəmləndirilməsi üçün mühüm bir vəsilədir.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: “Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq”. Azərbaycanın müstəqilliyi əbədidir, çünki onun arxasında xalqın iradəsi, qanı, canı bahasına qorunan torpaqlar və güclü dövlətçilik ənənəsi dayanır.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. “Konstitusiya və Suverenlik ili” bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcəkdir.

***Xızı Rayon Statistika İdarəsinin rəisi Rövşən Quliyev***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 14



# Azərbaycanda mina və kasetli silahların qurbanlarının sayı açıqlandı




***"Kasetli silah qurbanları" kasetli silahların tətbiq edilməsi nəticəsində öldürülən və ya cismani zədə alan, yaxud psixi sarsıntıya məruz qalan, iqtisadi zərərə düşən, sosial cəhətdən təcrid olunmuş və ya öz hüquqlarını reallaşdırmaqda əhəmiyyətli dərəcədə əziyyət çəkən bütün şəxslər nəzərdə tutulur. Bunlara kasetli silahların birbaşa təsirinə məruz qalanlar, ailə üzvləri və yaşadıqları icmalar daxildir.***

"Unikal"ın xəbərinə görə, bu barədə məlumat "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin kasetli sursat probleminə dair hesabatında öz əksini tapıb.

Bildirilib ki, bu layihə çərçivəsində aparılan təhqiqat zamanı 1992-2025 illəri əhatə edən dövr ərzində Füzuli, Bərdə, Goranboy, Beyləqan, Ağdam, Tərtər, Yevlax, Kəlbəcər, Qəbələ və Şuşa rayonlarından, Bakı, Gəncə və Mingəçevir şəhərlərindən olan 233 mülki şəxs kasetli silah qurbanı kimi müəyyən edilib.

Kasetli silahla baş verən hadisə anında 8-i uşaq (5 qız, 3 oğlan), 13-ü qadın olmaqla 51 nəfər həlak olub, 34-ü uşaq (18 qız, 16 oğlan), 47-i qadın olmaqla 182 nəfər yaralanıb. Hadisə anında ən kiçik zərərçəkən 5 yaşında, ən yaşlı şəxs isə 78 yaşında olub.

Bundan başqa 21 hərbçinin kasetli silah qurbanı olduğu müəyyən edilib, bunların da iki nəfəri həlak olub, 19 nəfəri yaralanıb.

01.01.2025-31.07.2025 tarixlərində 15 mina hadisəsi nəticəsində 20 nəfərin mina və PHS qurbanı olması faktı qeydə alınıb. Həlak olan qeydə alınmayıb. Mina və PHS partlayışları Ağdam, Ağdərə, Cəbrayıl, Füzuli, Goranboy, Kəlbəcər, Qazax, Xocalı, Xocavənd rayonlarının ərazisində baş verib. Zərərçəkənlərin 3 nəfəri uşaq və gənclər olub. O cümlədən 1 nəfər qadın və 19 nəfər kişi partlayıcı sursatlardan zərərçəkmiş kimi qeydə alınıb.

10.11.2020-31.07.2025 tarixlərini əhatə edən dövr ərzində baş vermiş mina hadisələri nəticəsində 55 nəfəri mülki şəxs olmaqla 70 nəfər həlak olub, 160 nəfəri mülki şəxs olmaqla 332 nəfər müxtəlif bədən xəsarətləri alıb. Onlardan 12 nəfər kasetli silah qurbanı olub.

1991-ci ildən 31 iyul 2025-cü il tarixədək 3 400 nəfərdən çox mina və PHS qurbanı olub. Bunların 600 nəfəri həlak olub, 2 812 nəfər yaralanıb. Qurbanların 38 nəfəri qadın, 362 nəfəri uşaq və gənclərdir.

131 nəfər Vətən müharibəsi zamanı, 12 nəfər isə sonradan olmaqla ümumilikdə 143 nəfər kasetli sursatların qurbanı olub.

# Vətənini canından çox sevən Turanın qəhrəmanlıq dastanı

***Şanlı tariximizə yazılan, Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etməsi ilə başa çatan Vətən müharibəsində neçə-neçə igid oğlanlar şüurlu surətdə öz canlardan keçdilər. Hərəsi elə Vətən səmasının əbədi parlaq günəşinə çevrilən belələrindən biri də 1996-cı il iyulun 7-də Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olan Turan Sulduz oğlu Əliyevdir. İndi şəhidlik zirvəsindən bizim xoş gələcəyimizə boylanan, ölümsüzlük qazanan qəhrəmanın adı xalqın dilindən düşmür. Qərinələr ötəcək, gələn nəsillər üçün də Turanın 24 illik ömrü örnək olacaq. Vətənin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu yolu seçənlər heç zaman ölmürlər...***



Turan Əliyev kənddəki tam orta məktəbi bitirəndə Vətənə ürəkdən bağlılıq, doğma yurda, torpağa sevgi onun həyat kredosuna dönüb. Qeyrətli gənc olaraq yağının zəbt etdiyi Qarabağımıza, törətdiyi qanlı əməllərə görə narahatlıq keçirdən Turan cəbhə bölgəsində xidmət etmək məqsədilə 2016-cı ildə ordu sıralarına gedib. Vətənin keşiyində ayıq-sayıq dayanan əsgər verilən bütün tapşırıqlara ürəklə yanaşıb, cəsurluğu, mərdliyi, fədakarlığı onu əsgərlərin və zabitlərin yanında həmişə başıuca edib. Hamıya bildirib ki, Vətən torpaqları azad olmamış mən silahı yerə qoymaram. Bu istəklə 2018-ci ilin fevral ayından MAHHXHQ kimi kiçik çavuş rütbəsində xidmətini davam etdirib. Mütləq qalib gələcəyimizə inamla erməni dığalarına qarşı döyüşə can atıb. Müdafiə Nazirliyinin Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi tərəfindən təşkil olunmuş atıcılıq kurslarında fərqlənib, komandirləri tərəfindən mükafatlara layiq görülüb.

Sentyabrın 27-də işğalçı Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi növbəti hərbi təxribata cavab olaraq Ordumuzun başladığı 44 günlük haqq savaşımıza baş atıcı vəzifəsində qatılan Turan ürəyində tutduğu ilk sarsıdıcı zərbəni düşmənə vura bilib. Sərrast atıcı daha sonra Füzulidə ölüm-dirim müharibə meydanına girib. Burada da şəxsi igidlik, şücaət göstərməklə dığalara qan uddurub, əsl vətənpərvər qəhrəman kimi tanınıb. Hər dəfə sinəsini irəli verib yağıya meydan oxuyan, neçə-neçə ağır sınaqlardan üzüağ çıxan kiçik çavuşun Füzulidən başladığı zəfər yolu onu qələbəyədək aparıb. 44 gün mərdliklə vuruşan, bir-birindən çətin döyüş əməliyyatlarında qanı bahasına erməni dığalarına layiqli dərs verən Vətən sevdalısı Füzulidə şəhadətə qovuşub, boya-başa çatdığı doğma Əsgərabad kəndində dəfn olunub. Prezidenti İlham Əliyevin Sərəncamları əsasında zəfər şəhidi Turan Əliyev göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətənini canından çox sevən, məqamında ona özünü fəda edən Turan Əliyev kimi qəhrəmanlar bütün Azərbaycan xalqının fəxridir.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2025-ci il yubileylər ilidir




***Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur.***

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilərək həyata keçdi.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq cənab prezidentimiz bu ili Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan etmişdir "Konstitusiya və Suverenlik ili" Azərbaycan dövlətçiliyinin əsaslarını möhkəmləndirmək, hüquqi sistemin daha da təkmilləşdirilməsi və ölkənin müstəqillik yolunda qazandığı uğurları vurğulamaq məqsədini daşıyır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq". Azərbaycanın müstəqilliyi əbədidir, çünki onun arxasında xalqın iradəsi, qanı, canı bahasına qorunan torpaqlar və güclü dövlətçilik ənənəsi dayanır.

***Ağsu Rayon***
***Statistika İdarəsinin baş məsləhətçisi***
***Leyla Cəbrayılova***

# 2025-ci ilin 6 ayında Ağdaşda nəqliyyat və anbar təsərrüfatının əsas göstəriciləri

***2025-ci ilin yanvar-iyun ayları ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə cəmi məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,3 faiz azalaraq 3627,4 min manat olmuşdur.***




Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışının 3366,4 min manatı, 92,8 faizi fiziki şəxslərin payına düşmüş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz və ya 185,0 min manat artmışdır.

Fiziki şəxslər tərəfindən yerinə yetirilmiş iş və xidmətlərin 1385,1 min manatı və ya 41,1 faizi yük daşınmasının, 1981,3 min manatı və ya 58,9 faizi isə sərnişin daşınmasının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrünə nisbətən 2025-ci ilin yanvar-iyun aylarında fiziki şəxslər üzrə məhsul buraxılışının ümumi həcmində yük daşınması 6,3 faiz və ya 82,3 min manat, sərnişin daşınması isə 5,5 faiz və ya 102,7 min manat artmışdır.

2025-ci ilin yanvar-iyun aylarında avtomobil nəqliyyatı ilə 611,0 min ton yük, 7085,0 min sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən yük daşınması 6,6 faiz və ya 38,0 min ton, sərnişin daşınması isə 5,8 faiz və ya 387,0 min sərnişin artmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

36_27 IYUl-QARA.qxd 9/25/2025 11:15 PM Page 15





# İranla sərhədə 204 kilometrlik divar çəkilib

***Türkiyənin şərqindəki Van şəhəri ilə İranın dövlətlərarası sərhədində tikilən divarın 204 kilometrlik hissəsinin tikintisi başa çatıb, 91 kilometrlik hissəsində isə tikinti işləri hələ də davam edir.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı yazıb.

Məlumata görə, sərhəd divarı qeyri-qanuni yollarla Vana daxil olan insanların ölkəyə girişinin, həmçinin terror və qeyri-qanuni fəaliyyətlərin qarşısını almaq üçün tikilir.

Xatırladaq ki, tikinti işlərinə 2021-ci ildə başlanılıb.

*Ağarza Elçinoğlu*

# "Rusiya Ukraynanı elə silahlarla vurar ki..." - Medvedev hədələdi



***Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib ki, Rusiya Ukraynaya qarşı heç bir bomba sığınacağın qoruya bilməyəcəyi silahlardan istifadə edə bilər.***

"Unikal" xəbər verir ki, onun sözlərini TASS sitat gətirib.

"Rusiya bomba sığınacaqlarının qoruya bilməyəcəyi silahlardan istifadə edə bilər. Amerikalılar bunu yadda saxlamalıdırlar", - o vurğulayıb.

Bundan əvvəl Ukrayna lideri Volodimir Zelenski bəyan etmişdi ki, Amerika lideri Donald Tramp Kiyevi Rusiya lideri Vladimir Putini danışıqlar masasına oturmağa "məcbur edəcək" silahlarla təmin etməyi düşünməyə söz verib.

"Rusiya müharibəyə son qoymasa, Kremldə çalışan rəsmilər ən yaxın bomba sığınacağının harada olduğunu bilməlidirlər", - deyə Ukrayna lideri cavab olaraq hədələyib.

Zelenski əlavə edib ki, Tramp Ukraynanın Rusiyanın enerji və hərbi stansiyalarına hücumlarını dəstəkləyir.

*Gülayə Mecid*

# Ermənistan müdafiə büdcəsini 15% azaldır



***Ermənistan hökuməti bugünkü iclasında 2026-cı il dövlət büdcəsi layihəsini təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV yazıb.

Müvafiq olaraq, hökumət gələn il müdafiə büdcəsini təxminən 15,2 faiz azaltmağı planlaşdırır. Qanun layihəsində 2026-cı ildə Müdafiə Nazirliyinə 563 milyard dram (təxminən 1,5 milyard dollar) vəsait ayrılıb. Bu illə müqayisədə hərbi xərclər təxminən 265 milyon dollar azalacaq. Gələn il Ermənistanın dövlət borcunu idarə etmək üçün daha çox pul xərclənəcək. 423 milyard dramdan çox və ya 1,1 milyard dollar yalnız borclar üzrə faizlərin ödənilməsinə yönəldiləcək.

*Ağarza Elçinoğlu*


**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən ismayilov Çingiz Gülbala ogluna verilmiş AA 13200 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**


# Lavrov ATƏT-in fəaliyyətini müzakirə etdi

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov və İsveçrənin xarici işlər naziri İqnazio Kassis BMT Baş Assambleyasında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) ilə vəziyyəti müzakirə ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.



"Müzakirələr zamanı Rusiyanın ATƏT-də vəziyyətin acınacaqlı olmasının səbəbləri ilə bağlı fundamental qiymətləndirmələri ətraflı açıqlanıb" , - XİN qeyd edib.

Diplomatik missiya ATƏT-in təhlükəsizlik və əməkdaşlıq məsələlərində rolunun aşağı düşdüyünü bildirib.

*Gülayə Mecid*

# ABŞ Azərbaycan və Ermənistanla bağlı fikir mübadiləsi aparır

***Türkiyənin xarici işlər naziri Hakan Fidan və Türkiyənin kəşfiyyat naziri İbrahim Kalınla Azərbaycan və Ermənistanla bağlı fikir mübadiləsi aparılır.***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidentinin xüsusi elçisi Stiv Uitkoff açıqlayıb.

"Toma (ABŞ-nin Ankaradakı səfiri) zəng edib İbrahim Kalının bu məsələ ilə bağlı fikirlərinin necə olduğunu soruşuram. Sizə buna bənzər çoxlu misallar verə bilərəm", - o deyib.

*Ağarza Elçinoğlu*



# Sarkozi 5 il müddətinə azadlıqdan məhrum edilib

***Paris məhkəməsi Fransanın keçmiş prezidenti Nikola Sarkozini 2007-ci il seçki kampaniyasının Liviya tərəfindən maliyyələşdirilməsi ilə bağlı işdə suiqəsddə təqsirli bilib.***

"Unikal" xəbər verir ki, bu barədə "France 24" yazıb.

Sarkozi Liviya lideri Müəmmər Qəddafidən qeyri-qanuni kampaniya vəsaiti almaq üçün sui-qəsddə təqsirli bilinib.



Prokurorlar iddia edirlər ki, Sarkozi 2005-ci ildə beynəlxalq dəstək müqabilində seçki kampaniyasının maliyyələşdirilməsini təmin etmək üçün Qəddafi ilə müqavilə bağlayıb.

Sarkozi əvvəllər korrupsiyada, kampaniyanın qanunsuz maliyyələşdirilməsində və Liviya dövlətinin vəsaitlərini gizlətməkdə ittiham olunurdu.

Siyasətçi heç bir sübut olmadan ittiham olunduğunu iddia edib.

*Ağarza Elçinoğlu*

# "Müharibə bitdikdən sonra istefa verəcəm" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski bəyan edib ki, müharibə bitdikdən sonra ölkəni idarə etmək planları yoxdur.***

"Unikal" xəbər verir ki, o, bu barədə Amerikanın "The Axios Show" verilişində açıqlama verib.

Belə ki, Zelenski aparıcının "Putinin atəşkəslə bağlı razılığa gələcəyi təqdirdə, Ukraynada seçkilərin keçirilməsini təmin edəcəksiniz?" sualına "Bəli", - deyə cavab verib.

"Məqsədim müharibəni bitirməkdir, prezidentliyə davam etmək deyil", - Ukrayna prezidenti qeyd edib.

Bundan əlavə, Zelenski bildirib ki, atəşkəs əldə olunarsa, seçkilərin təşkili xahişi ilə Ukrayna parlamentinə müraciət edəcək.

*Gülayə Mecid*



# Bu şərtlərlə Fələstini dövlət kimi tanıyacaq

***İtaliyanın baş naziri Giorgia Meloni BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 80-ci sessiyası çərçivəsində hökumətin Fələstini tanımaq üçün parlamentə təklif təqdim edəcəyini açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Meloni bunun yalnız bütün girovların azad edilməsi və HƏMAS-ın Qəzzadan və onun idarəçiliyindən tamamilə uzaqlaşdırılması şərti ilə həyata keçiriləcəyini bildirib.



"Mən Fələstinin tanınmasının əleyhinə deyiləm, lakin biz prioritetlərimizi düzgün təyin etməliyik", - deyə o, ifadə edib.

Meloni həmçinin beynəlxalq təzyiqlərin İsraildən çox HƏMAS-a yönəlməsi lazım olduğunu bildirərək, "HƏMAS müharibəni başlatandır və girovları geri qaytarmaqdan imtina edərək müharibəni bitirməkdən imtina edir", - deyib.

*Gülayə Mecid*

# "Qarabağ" klubu 5000, "Sabah" 2000 manat cərimələndi



***AFFA İntizam Komitəsi "Sabah", "Qarabağ" və "Araz-Naxçıvan" klublarını cərimələyib.***

"Unikal" xəbər verir ki, bu barədə milli assosiasiyanın rəsmi saytı məlumat yayıb.

21.09.2025-ci il tarixində Misli Premyer Liqasında V turun "Araz-Naxçıvan" - "Qarabağ" oyununun 28-ci dəqiqəsində "Araz-Naxçıvan" komandasının 5 nömrəli futbolçusu Slavik Alxasov ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalansın, "Araz-Naxçıvan" komandası 500 manat cərimə edilsin (maddə 17.7);

21.09.2025-ci il tarixində Misli Premyer Liqasında V turun "Araz-Naxçıvan" - "Qarabağ" oyununun 60-cı dəqiqəsində "Qarabağ" komandasının azarkeşləri tərəfindən rəqib futbolçunun ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə "Qarabağ" klubu 5000 manat cərimə edilsin (maddə 52.5);

20.09.2025-ci il tarixində Misli Premyer Liqasında V turun "Sabah" - "Turan Tovuz" oyununa Təcili Tibbi Yardım avtomobili təyin edilmiş vaxtdan gec gəldiyinə görə "Sabah" klubu 2000 manat cərimə edilsin (maddə 99, 94, 57.2);

# "Birinci liqada komandaların hamısı inkişaf edir" - Elvin Məmmədov

***"Oyun çox yaxşı keçdi. Birinci liqa üçün çox gözəl qarşılaşma oldu. Təki bütün matçlar belə olsun".***

Bu sözləri QOL.az-a açıqlamasında "Səbail"in baş məşqçisi Elvin Məmmədov 1-ci liqanın 3-cü turunda "Şahdağ Qusar"ı məğlub etdikləri (2:0) oyun haqda danışarkən deyib.

O, mövsümə yaxşı başladıqlarını bildirib: "Birinci liqada komandaların hamısı inkişaf edir. Meydanda çox yaxşı temp var idi. Göstərilən oyuna görə hər iki komandanı təbrik edirəm. Çempionata yaxşı start vermişik. "Şahdağ Qusar"la matçda da qələbəmizi qazandıq. Uşaqlar çox əziyyət çəkdilər. Yolumuza davam edirik. Çatışmayan cəhətlərimiz var. Hər oyunu analiz edib, daha yaxşı hazırlaşmağa çalışırıq. Səhvlərimiz üzərində işləyir və onları aradan



qaldırmağa çalışırıq".

E.Məmmədov komandasının qol epizodlarının dəyərləndirə bilməməsinə də toxunub: "Əlbəttə, futbolda belə hallar olur. Amma dediyim kimi, temp əla idi. Açılmalar, ötürmələr... Səhvlərimiz də var. Üzərində işləyirik".

Baş məşqçi komandaya böyük ümidlərlə transfer olunan iranlı hücumçu Ali Babaeinin oynamamasına da aydınlıq gətirib: "O, hələ tam hazır deyil. Bu dəqiqə o riski edə bilmərik. Bizim üçün lazımlı futbolçudur, lakin tam hazır deyil, bu səbəbdən də gözləyirik. Onu itirmək istəmərik. Çünki mövsüm öncəsi komanda ilə birgə hazırlıq keçməyib. Növbəti turlarda Ali Babaei də şans qazanacaq".

E.Məmmədov çempionluq yolunda əsas rəqiblərindən olan "Şəfa"dan hələlik xal hesabında olmasa da, top fərqində geri qalmalarına da münasibət bildirib: "Keçən dəfə də dedim, bizim üçün hər rəqib çətindir. Hər rəqibə qarşı çox ciddi hazırlaşırıq. "Şəfa" formadadır, yaxşı komandadır, güclü kollektivdir. Lakin bizim rəqibimiz tək onlar yox, bütün komandalardır. Liqadakı kollektivlərin hamısı bizim rəqibimizdir".

# "Neftçi" Abubakara təklif göndərib

***Kamerun millisinin hücumçusu Vensan Abubakar Azərbaycanda oynaya bilər.***

QOL.az "Actu Cameroun" nəşrinə istinadən xəbər verir ki, "Neftçi" 33 yaşlı futbolçuya rəsmi təklif göndərib.

Xəbərdə qeyd edilib ki, hazırda klubsuz olan Abubakar üçün "Neftçi" variantı yaxşı fürsət ola bilər. "Neftçi"nin təcrübəli forvarddan cavab gözlədiyi bildirilib.

Qeyd edək ki, "Portu", "Beşiktaş", "Loryan" və "Əl-Nəsr" klublarında çıxış etmiş Abubakarın son ünvanı "Hatayspor" (Türkiyə) olub. O, ötən mövsüm Türkiyə superliqasında 25 oyunda meydana çıxıb, 7 qol vurub və 2 qolun ötürməsini edib.

Xatırladaq kl, bir müddət əvvəl "Qarabağ"ın da Abubakarı heyətinə cəlb etmək istədiyi ilə bağlı xəbərlər yayılmışdı.





# Messi dubl etdi, komandası qalib gəldi

***Məşhur futbolçu Lionel Messinin də formasını geyindiyi "İnter Mayami" MLS-də 29-cu turun oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, komanda səfərdə "Nyu-York Siti" ilə qarşılaşıb. Görüşdə "İnter Mayami" 4:0 hesablı qələbə qazanıb.

Messi də bu matçda iştirak edib. 38 yaşlı hücumçu dubl etməyi də bacarıb. Digər 2 qolu isə Baltasar Rodriqes və Luis Suares vurublar.

Qeyd edək ki, hazırda "İnter Mayami" turnir cədvəlində 55 xalla 3-cüdür.

# "Roma"dan Avroliqa tarixinin rekordu

***"Roma" Avropa Liqasında yeni rekord müəyyənləşdirib.***



QOL.az xəbər verir ki, İtaliya təmsilçisi buna ötən gün Liqa mərhələsinin 1-ci turunda Fransa "Nitsa"sını məğlub etməklə nail olub.

Paytaxt təmsilçisi yarış tarixindəki qələbələrinin sayını 98-ə çatdırıb. Beləliklə, "Roma" Avroliqanın son qalibi, hazırda Çempionlar Liqasında çıxış edən "Tottenhem"in (97 qələbə) rekordunu qırıb.

Qeyd edək ki, "Roma" növbəti mərhələdə "Lill"i qəbul edəcək.

# Güləşçilərimiz Yunanıstanda dünya çempionu oldular




***Yunanıstanın Katerini şəhərində keçirilən çimərlik güləşi üzrə U17 dünya çempionatında Azərbaycan idmançıları böyük uğur qazanıblar.***

"Unikal" xəbər verir ki, 55 kq çəki dərəcəsində çıxış edən Ülviyyə Musayeva finalda yaponiyalı Reisa Kojimaya 4:0 hesabıyla qalib gələrək dünya çempionu olub. O, yarımfinalda polşalı Aqata Kuçarskayanı 3:2, 1/4 finalda isə britaniyalı Naosi Makmanusanı 3:0 hesabıyla məğlub etmişdi.

Digər uğurumuz 80 kq çəki dərəcəsində Nihad Süleymanlı qazanıb. O, finalda gürcüstanlı Nuradin Mustafayevi 3:0 hesabıyla üstələyərək dünya çempionu tituluna yiyələnib. Süleymanlı yarımfinalda iranlı Abulfazl Saadatini 4:0, 1/4 finalda isə həmyerlisi Elvin Hacıquliyevi 3:0 hesabıyla məğlub edib.

Beləliklə, Azərbaycan güləşçiləri Yunanıstanda keçirilən U17 dünya çempionatında iki qızıl medal qazanıblar.